# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Heydər Əliyev və media": uzun yolun qısa icmalı




4


SƏS

№ 118 (7286)

9 iyul 2025-ci il.
Qiymәti 60 qəpik


# BÖYÜK QAYIDIŞ: Xıdırlıda yeni həyat




2

**Prezident İlham Əliyev: "Biz qalib kimi, bu torpaqların sahibləri kimi qayıtdıq"**

# Region erməni kimi qəddar və hiyləgər toplumdan xilas olur



7

### "İki lider Rusiya-Azərbaycan münasibətlərində hər hansı problemi həll etməyə qadirdir"



6

### Ucuz geyimin bahalı tərəfi: İkinci əl geyimlərin mənfi təsirləri



10

### Attestat vacibdir, yoxsa buraxılış balı?



14

### Yay aylarında müalicə almaq olar?



16

### Özbəkistan Avropaya Azərbaycanla çıxır



3

# BÖYÜK QAYIDIŞ: Xıdırlıda yeni həyat

## Prezident İlham Əliyev: "Biz qalib kimi, bu torpaqların sahibləri kimi qayıtdıq"




İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Ağdam da işğaldan azad olunaraq yeni tarixi dövrünə qədəm qoyub. Bu gün Ağdam azaddır. Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. 1993-cü ilin iyul ayının 23-də Ağdamın işğalı tarixini artıq 20 noyabr 2020-ci ili qələbə tarixi əvəzlədi. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalanmağa başladı. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi.

Biz artıq Ağdamda həyata keçirilən abadlıq-quruculuq işlərindən fəxarətlə danışırıq. Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir, sakinlər öz doğma yurdlarına davamlı olaraq köç edirlər.

### BİRİNCİ MƏRHƏLƏDƏ KƏNDDƏ 719 FƏRDİ EV İNŞA EDİLİB

Artıq Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışı oldu. Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir. 2022-ci ilin oktyabrında kəndin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişdilər. Layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur. Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır.

Bundan başqa, kənddə zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir.

### 120 YERLİK KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASI

Bu günlərdə - iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər. Prezidentlər İlham Əliyev və Sadır Japarov Xıdırlı kəndi körpələr evi-uşaq bağçasının binasında yaradılan şəraitlə tanış olublar. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir. Binada qrup otaqları, musiqi otağı, idman zalları balacaların ixtiyarına veriləcək. Burada uşaqların özlərini rahat və qayğısız hiss etmələri, onların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün zəruri şərait mövcuddur. Uşaq bağçasının ətrafında yaşıllıq zolaqları salınıb, idman və oyun meydançaları, söhbətgahlar yaradılıb. Binanın damında Günəş panelləri quraşdırılıb.

Azərbaycan və Qırğızıstan prezidentləri Xıdırlı kəndindəki klub-icma mərkəzində olublar. Dövlət başçıları burada yaradılan şəraitə baxıblar. Binada 190 yerlik akt zalı, bufet, rəqs məşqləri, dərnək otaqları və digər inzibati otaqlar yaradılıb. Klub-icma mərkəzində Xıdırlı kəndi ilə bağlı müxtəlif sosial və mədəni tədbirlərin, habelə el şənliklərinin və digər mərasimlərin keçirilməsi üçün hərtərəfli şərait var.

### MANAS ADINA XIDIRLI KƏND TAM ORTA MƏKTƏBİ

Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını ediblər.

Əvvəlcə prezidentlər məktəbin həyətində quraşdırılan yurtaya baxıblar. Səyyar yaşayış yeri kimi asanlıqla qurulub-sökülən yurta köçəri həyat tərzi üçün nəzərdə tutulur. Hazırda Mərkəzi Asiyada turizm istiqaməti kimi bir çox türk xalqları yurta turizmini inkişaf etdirirlər.

Qeyd edək ki, 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. "Sadır Nurqojoyeviçin təşəbbüsü ilə bu regionun hazırda ən böyük yaşayış məntəqəsi olan Xıdırlı kəndində gözəl məktəb tikilib. Bu gün biz ona baxış keçirdik və rəsmi şəkildə açdıq. Məktəbə Ayköl Manasın adı verilib. Bildiyiniz kimi, "Manas" qırğız xalqının dastanıdır, qırğızların ruhunu təcəssüm etdirir. Əminəm ki, bu məktəbin və bu kəndin gələcək inkişafı üzrə hər şey bizim qırğız qardaşlarımızla bağlı olacaq", - deyə Prezdentimiz diqqətə çəkib. Məktəbin binası 5 blokdan, o cümlədən idman zalı blokundan ibarətdir. Ərazisi 2,7 hektar olan məktəb binasında 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otaqları, 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana və digər sahələr yaradılıb. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait yaradır. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri inşa edilib. "Bu gün məktəbin açılışını uzun illər işğal altında olan Xıdırlı sakinlərinin - kimisi yataqxanada, kimisi də uşaq bağçası binalarında yaşayan sakinlərin vətənə qayıtmalarının birinci mərhələsinə həsr etdik". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında yeni mənzillərə köçən sakinlərlə görüşü zamanı bildirib.

### "BİZ QIRĞIZISTAN-AZƏRBAYCAN DOSTLUĞUNUN MÖHKƏM BİNASINI TİKMİŞİK"

"Bu gün Qarabağın, Şərqi Zəngəzurun dirçəldiyi, infrastruktur obyektlərinin, evlərin, ictimai binaların tikildiyi bir vaxtda, ilk növbədə, hər bir layihədə məktəb, uşaq bağçası, körpələr evi, tibb məntəqələri planlaşdırırıq. Bunlarsız normal həyat ola bilməz", - deyə bildirən dövlət başçımız qeyd edib ki, bizim uğurla reallaşdırdığımız "Böyük Qayıdış" Proqramını həyata keçirməli olduğumuz bir vaxtda qardaş ölkələrin köməyi xüsusilə dəyərlidir: "Bu, qırğız xalqının qəlbindən, ürəyindən gələn köməkdir. Artıq dediyim kimi, bunun təşəbbüskarı Qırğızıstan Prezidenti olub. Bildiyiniz kimi, keçən ilin aprel ayında, - hətta məktəbin içərisində bir fotoşəkil də var, - Sadır Nurqojoyeviçlə bu məktəbin təməlini qoyduq və razılaşdıq ki, hazır olanda birlikdə gələcəyik. Belə alındı ki, Xıdırlı kəndi də hazırdır - gözəl evlər, icma mərkəzi, tibb məntəqəsi və bu cür yaraşıqlı təhsil ocağı. Bu, bir daha ölkələrimizin qardaşlığından, bizim tarixi, etnik, mədəni və mənəvi yaxınlığımızdan xəbər verir. Bu təməl üzərində bu gün biz Qırğızıstan-Azərbaycan dostluğunun möhkəm binasını tikmişik".

### "RUHDAN DÜŞMƏDİLƏR, İNANIRDILAR, BİLİRDİLƏR Kİ, BİZ BU TORPAQLARA, DƏDƏ-BABA TORPAQLARIMIZA MÜTLƏQ QAYIDACAĞIQ"

Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək.

Burada görülən işlər əzəli sakinlərini qoynuna alır. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılmışdı. Ağdam Konfrans Mərkəzi Ağdam rayonu işğaldan azad edildikdən sonra inşa olunub. Ağdam Konfrans Mərkəzində müasir tələblərə uyğun tədbirlərin - konfransların, seminarların, forumların, simpoziumların, işgüzar görüşlərin, konsertlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Mərkəz artıq beynəlxalq və yerli tədbirlərə ev sahibliyi edir.

Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Ən əsası isə onu qeyd edək ki,

Ağdamda görülən işlər sırasında Ağdam Muğam Mərkəzinin açılışı da böyük əhəmiyyət daşıyır. Cari ilin mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyev Muğam Mərkəzinin açılış mərasimində çıxışı zamanı "Bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür", - deyə bildirib. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

Azərbaycan Prezidenti İlham Əliyev sakinlərlə görüşü zamanı bildirdiyi kimi, "Çoxları 2007-ci ilə qədər çadır şəhərciklərində yaşayırdı. Onlar torpaqlarımızın işğal altında olduğu dövrün bütün çətinliklərini yaşayıblar. Amma ruhdan düşmədilər, inanırdılar, bilirdilər ki, biz bu torpaqlara, dədə-baba torpaqlarımıza mütləq qayıdacağıq. Biz qalib kimi, bu torpaqların sahibləri kimi qayıtdıq və buna görə də burada dağıdılan hər şeyi, - nəinki Ağdam şəhərində, bütün Ağdam rayonunda bir dənə də olsun dağıdılmayan tikili qalmayıb, - bu gün yenidən həyata qaytarırıq."

***Zümrüd BAYRAMOVA***




# Özbəkistan Avropaya Azərbaycanla çıxır

**"Dənizə çıxışı olmayan Özbəkistan Asiya ilə Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TİTR) üzrə yükdaşımaları artırmaq üçün Xəzər dənizində öz ticarət donanmasını yaradır. Türk şirkətləri yeni gəmilərin idarə olunmasında ortaq olacaq. Lakin ekspertlərin fikrincə, bu mühüm nəqliyyat dəhlizinə tam nəzarət etmək üçün Özbəkistan da Xəzər dənizində öz liman infrastrukturunu yaratmalıdır. Yaxın vaxtlarda Xəzər dənizində Özbəkistan bayrağı altında üzən bərələr peyda olacaq ki, bu da Özbəkistanı Azərbaycanla birləşdirən əsas nəqliyyat marşrutu olan Orta Dəhliz üzrə yüklərin çatdırılmasını əhəmiyyətli dərəcədə sürətləndirəcək", Özbəkistanın nəqliyyat naziri İlxom Mahkamov "Özbəkistan 24" telekanalına müsahibəsində bildirib.**

Onun sözlərinə görə, bu qərar prezident Şavkat Mirziyoyevin Azərbaycana səfərinin nəticəsi olub və təkcə iqtisadiyyatı və ticarəti stimullaşdırmaq üçün deyil, həm də nəqliyyat və logistika sahəsində əməkdaşlığı əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq məqsədi daşıyır. Transxəzər marşrutu Özbəkistan tərəfindən, xüsusilə ixrac və tranzit axınının artması fonunda cənub və şimal marşrutlarına alternativ kimi baxır. M.Mahkamov vurğulayıb ki, öz bərə donanmasının yaradılması zərurəti Xəzər dənizi ilə yükdaşımaların həcminin 25%-ə qədər artması (0,8 milyon tondan 1 milyon tona) və bəzən pulsuz bərə gözləməsinin 30-40 günə çatan əhəmiyyətli gecikmələrlə bağlıdır. Layihənin həyata keçirilməsi üçün Özbəkistana dəstək verməyə hazır olan türk tərəfdaşları ilə artıq razılıq əldə olunub.

Nazir həmçinin xatırladıb ki, Azərbaycan öz ərazisi ilə konteyner dəmir yolu ilə daşımalarda güzəştli şərtləri uzadıb. 70%-ə qədər endirim 2026-cı ilin sonuna qədər qüvvədə olacaq ki, bu da Orta Dəhlizin inkişafına daha da töhfə verir. Azərbaycan Özbəkistana ticarət gəmilərinin layihələndirilməsi və inşasında da köməklik göstərəcək. Layihənin dəyəri 150 milyon dollar qiymətləndirilir. Müvafiq sənədi iki ölkənin liderləri Şavkat Mirziyoyev və İlham Əliyev Özbəkistan və Azərbaycan Ali Dövlətlərarası Şurasının 2025-ci il iyulun 2-də Bakıda keçirilən iclasının yekunları üzrə imzalayıblar.

Özbəkistanın Bakı limanında öz terminalının yaradılması planları barədə əvvəllər nəqliyyat nazirinin müavini Abdusamat Muminov məlumat verib, hazırda texniki-iqtisadi əsaslandırma hazırlanır. Hazırda Özbəkistan idxalçıları Aktau və Kurık limanlarının imkanlarından istifadə edərək başqa limanlarda terminal icarəyə götürməyə məcburdurlar. Ekspertlər qeyd edirlər ki, Özbəkistan dünyada "ikili kilidli ölkələr" kateqoriyasına daxil olan iki ölkədən biridir. Bu o deməkdir ki, Dünya Okeanına çatmaq üçün ən azı iki dövlət sərhədini keçmək lazımdır. Buna görə də marşrutların şaxələndirilməsi və logistikanın yaxşılaşdırılması məqsədilə Daşkənd İran və Pakistanla logistika mərkəzinin yaradılması haqqında saziş imzalayıb. Yeni terminal İranın Şəhid Rəcai limanında görünməli idi, lakin bu ölkədəki qeyri-sabit vəziyyətə görə layihə hələlik dayandırılıb. Alternativ olaraq, Pakistanın Kəraçi limanında analoji mərkəzin yaradılması nəzərdən keçirilir ki, bu da liman infrastrukturu ilə tanış olmaq və Özbəkistan məhsullarının ixracını və malların tranzitini əhəmiyyətli dərəcədə asanlaşdıra biləcək müasir anbar kompleksinin və logistika mərkəzinin yaradılması layihəsini müzakirə etmək üçün Özbəkistan nümayəndə heyətinin Sind əyalətinə bu yaxınlarda səfəri ilə təsdiqlənir.

Özbəkistan və Qazaxıstan alternativ olaraq Transxəzər marşrutunu nəzərdən keçirir

12 günlük Yaxın Şərq münaqişəsi Qazaxıstan və Özbəkistanın Hörmüz boğazından keçən əsas logistika marşrutlarını təhlükə altına qoyub. Buna cavab olaraq, Astana və Daşkənd öz xarici ticarət strategiyasını aktiv şəkildə yenidən nəzərdən keçirir, yük axınını alternativ istiqamətlərə yönəldir. Əsas diqqət Çin, Xəzər dənizi və Gürcüstan limanlarını birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TİTR), həmçinin Şimal-Cənub yoluna yönəlib. Bundan əlavə, Rusiyadan keçən ənənəvi şimal marşrutları artan sanksiyalara baxmayaraq, fəaliyyətini davam etdirir.

Qazaxıstan hökumətinin milli iqtisadiyyat naziri Serik Jumanqarin Senatda jurnalistlərə Yaxın Şərq münaqişəsi ilə bağlı ölkə üçün potensial riskləri şərh edib. Hökumətin əsas qayğısı ixrac mallarının logistikası ilə bağlıdır. Qazaxıstan taxıl və digər ərzaq məhsulları tədarük edir. Qazaxıstan üçün yeganə cənub marşrutu olan İran üzərindən dəmir yolu nəqliyyatının kəsilməsi halında dövlət yük axınını alternativ marşrutlar üzrə istiqamətləndirməyə hazırdır. İran vasitəsilə ixrac həcmi hələ də kiçik olsa da - 2024-cü ildə 350 milyon dollar və 2025-ci ilin ilk beş ayında 120 milyon dollar, infrastrukturun məhdud olması və qovşaqlardakı problemlər səbəbindən Qazaxıstan bu istiqamətdə ticarəti artırmağı planlaşdırırdı. Xüsusilə, iyunun əvvəlində Astana və Tehran İrana buğda və arpa tədarükünü ildə 3 milyon tona çatdırmaq barədə razılığa gəliblər. Qazaxıstan Türkmənistan və ya Azərbaycandan keçən ənənəvi quru yollarından yan keçməklə İrana bir neçə alternativ marşrut təklif edir. Əsas alternativ marşrutlara Xəzər dənizi ilə dəmir yolu və dəniz nəqliyyatı, eləcə də hava nəqliyyatından istifadə daxildir. Alternativ olaraq TİTR daxilində Gürcüstan və Çin limanlarından keçən marşrutlar nəzərdən keçirilir. Logistikanın çətinləşməsinə baxmayaraq, hökumət münaqişənin uzanması halında biznesi dəstəkləməyə hazırdır. Jumanqarin əmin edib ki, hətta marşrutların dəyişdirilməsi ilə belə qiymətlərin əhəmiyyətli artımını gözləmək olmaz - ixrac olunan malların əksəriyyəti birjada satılır və onların dəyəri qlobal bazarda formalaşır.

Yaxın Şərqdə vəziyyətin gərginləşməsinə və bununla bağlı Özbəkistanın xarici iqtisadi əlaqələri üçün risklərə cavab olaraq, prezident Şavkat Mirziyoyev xarici ticarət marşrutlarına yenidən baxılması və yük axınlarının istiqamətinin dəyişdirilməsinə həsr olunmuş müşavirə keçirib. Prezidentin mətbuat xidmətinin qeyd etdiyi kimi, regionda hərbi əməliyyatlar onsuz da qeyri-sabit vəziyyəti daha da gərginləşdirərək Özbəkistanın dünya bazarlarına çıxışına təhlükə yaradıb. Prezident vəziyyətin obyektiv qiymətləndirilməsi və ilkin hesablamalara görə, nəqliyyat xərclərinin 30%-ə qədər artırılmasını nəzərdə tutan xarici ticarət, investisiya və nəqliyyat sahəsində tədbirlərin operativ şəkildə həyata keçirilməsini tapşırıb. Əsas vəzifələr arasında tərəfdaşlarla alternativ marşrutların əlaqələndirilməsi və ixracyönümlü müəssisələrə dəstəyin göstərilməsi daxildir.

Rusiyanın bəzi dairələri isə məsələyə başqa tərəfdən baxılmasında maraqlı görünürlər. Qeyd edirlər ki, guya İran limanları tamamilə bağlansa və Hörmüz boğazı bağlansa belə, Özbəkistanın logistikasında ciddi problem gözlənilmir. Yəni, cənub marşrutlarından asılılıqla bağlı narahatlıqlar əsassızdır, çünki Özbəkistanın ixrac və idxalının əsas hissəsi ənənəvi olaraq Rusiya (Sankt-Peterburq, Vladivostok, Novorossiysk), Çin və qismən də Qazaxıstan limanlarından keçir. Bu marşrutlar yaxşı qurulub, xidmət yaxşı qurulub və çatdırılma müddətləri proqnozlaşdırıla bilər. Sanksiyaların Rusiya limanları vasitəsilə yükdaşımalarına faktiki olaraq heç bir təsiri yoxdur. Daşkəndin onu inkişaf etdirmək səylərinə baxmayaraq, İran istiqaməti (Bəndər Abbas limanı) ilə bağlı vəziyyət, xidmətin zəif olması, ödəniş problemləri və bu marşrut xətti boyunca inkişaf etməmiş nəqliyyat ucbatından daha mürəkkəbdir.

Vəziyyətə İran hakimiyyətinin reaksiyası da təsir edir: nəqliyyat sektorunda, gömrük və təhlükəsizlik xidmətlərində gərginlik göz qabağındadır. Nəzərə alsaq ki, İsrail xüsusi xidmət orqanları sərhəddə "deşiklərdən", o cümlədən korrupsiya nəticəsində yaradılanlardan istifadə edib, indi İran hakimiyyətindən transsərhəd daşımaların təşkilinə diqqətin artacağını gözləmək olar. Bu, təbii ki, beynəlxalq daşımalarda öz izini qoya bilər. Davam edən münaqişə fonunda Qüdsü dəstəkləyən dövlətlər tərəfindən onun nəqliyyat blokadasına düşməsi halında Tehrana kömək edə biləcək müəyyən "dəstək koalisiyasının" yaranma şansı var. Və vəziyyətin bundan sonra necə inkişaf edəcəyini kim bilir.

Avrasiya İttifaqı isə Özbəkistanı gözləyir

Avrasiya İqtisadi İttifaqı (AİI) dünya üzrə orta göstəriciləri üstələyən iqtisadi artım templəri nümayiş etdirməklə, üçüncü ölkələrin diqqətini özünə cəlb etməyə çalışır. Lakin təşkilat ilk növbədə Özbəkistanı tamhüquqlu üzv kimi görmək istəyir. Ölkə 2020-ci ildən müşahidəçi statusuna malikdir. Prezident Şavkat Mirziyoyev Özbəkistanın AİI ilə əməkdaşlıq etmək istəyini təsdiqləyib, lakin üzvlük üçün dəqiq vaxt müəyyən edilməyib. Bu, Özbəkistanın 2026-cı ilə qədər Ümumdünya Ticarət Təşkilatına (ÜTT) daxil olmaq planları ilə bağlıdır, bundan sonra o, təqribən 2027-2028-ci illərdə AİI-yə daxil olmağa diqqət yetirəcək. Rusiya prezidenti Vladimir Putin forumda və onun başa çatmasından dərhal sonra bir neçə mühüm bəyanatla çıxış edib.

Mirziyoyev Özbəkistanın AİI-də ticarət prosedurlarının sadələşdirilməsi və texniki tənzimləmə sistemlərinin yaxınlaşdırılması ilə bağlı təkliflərinin araşdırılmasını sürətləndirməyə çağırıb. O, rəqəmsal texniki tənzimləmə sistemlərinə, nəqliyyat dəhlizlərinə və Avrasiya Təkrarsığorta Şirkətinə inteqrasiyada maraqlı olduğunu bildirib, həmçinin e-ticarət, rəqəmsal etiketləmə, logistik platformaların inkişafı və süni intellektin tətbiqi üzrə birgə proqram təklif edib. Onun sözlərinə görə, Özbəkistanın keçid məntəqələrinin vahid informasiya sistemində iştirakı sərhəd keçidlərini sürətləndirəcək və prosedurların şəffaflığını artıracaq. Əmək miqrasiyası məsələsinə toxunan Mirziyoyev peşəkar standartların yaxınlaşmasına çağırıb və Özbəkistanın regionda işçi qüvvəsinin mobilliyini artırmaq üçün "Sərhədsiz iş" inteqrasiya platformasına qoşulmağa hazır olduğunu bildirib. Prezident Şavkat Mirziyoyevin EAEU sammitindəki çıxışı göstərir ki, Özbəkistan qərarların qəbul edilməsində və Avrasiya inteqrasiyasının inkişafı üçün ümumi yanaşmaların işlənib hazırlanmasında dərindən iştirak edir, lakin eyni zamanda, tamhüquqlu üzvlük formatında AİI ilə qaçılmaz yaxınlaşmaya dair heç bir aydın göstərişlər ehtiva etmir. Özbəkistan AİI-də müşahidəçi olmaqla təşkilatın təşəbbüs və layihələrində iştirak edir. AİI qanunvericiliyinin bir hissəsinin həyata keçirilməsi və Avrasiya İqtisadi Komissiyasının islahatı tamhüquqlu üzvlüyə manеə olaraq qalır.

Daşkənddəki Ma'no Araşdırma Təşəbbüsləri Mərkəzinin rəhbəri Bəxtiyor Erqaşevin sözlərinə görə, 2027-2028-ci illərdə birliyin müşahidəçi statusundan tamhüquqlu üzv statusuna dəyişdirilməsi üçün danışıqlar prosesinin aktiv mərhələsi başlaya bilər. "Bu vaxta qədər Özbəkistan ÜTT-yə daxil olmalıdır. Bu təşkilata qoşulma prosesi Özbəkistan hökuməti üçün prioritet məsələdir. AİI-yə gəlincə, Mərkəzimizin hesablamalarına görə, texniki tənzimləmə və fitosanitar nəzarəti sahəsində Özbəkistan qanunvericiliyinin AİI qanunvericiliyi ilə sinxronlaşdırılması üzrə işlər aparılır və bu, bir neçə ildən sonra tamamlanacaq.

**V.VƏLİYEV**

# “Heydər Əliyev və media”: uzun yolun qısa icmalı

***İyulun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə ”Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfransın açılış mərasimi olub. Konfransın başlamasından əvvəl ”Azərbaycan mətbuatının 150 ili: Tarixdən günümüzə” adlı foto sərgi keçirilib. Sərgidə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin jurnalistlərlə görüşlərini, xarici jurnalistlərə verdikləri müsahibələr zamanı çəkilən fotoları, habelə Azərbaycan mətbuatının tarixi nəşrləri və Azərbaycan mətbuatının müxtəlif inkişaf mərhələlərini əhatə edən fotolar nümayiş olunub.***

Konfransın açılış məraisimdə Ümummilli Lider Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin əziz xatirəsi iştirakçıların bir dəqiqəlik sükutü ilə yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Tədbiri açıq elan edən ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədr müavini, telejurnalist Rafiq Həşimov Heydər Əlievin mətbuat tariximizdəki rolundan bəhs etdi. Daha sonra Ümummilli Lider Heydər Əliyevin mətbuatla




üzvü Mixail Qusman verib. O bildirib ki, bu ilin noyabrında Azərbaycanın böyük Zəfərinin beş ili tamam olacağı üçün belə bir konfransa ehtiyac var: ”Düşünürəm ki, noyabrda Prezident İlham Əliyevin medianın inkişafındakı rolu ilə bağlı konfrans keçirmək məqsədəuyğun olardı. Bu, çox ədalətli və lazımi bir konfrans olar. Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə verdiyi müsahibələr - peşəkar jurnalist diplomatiyasının möhtəşəm nümunəsidir. Mən bilirəm ki, bu müsahibələrin bir yerə toplandığı bir kitab var, lakin düşünürəm ki, bu, ayrıca müzakirəyə və təhlilə layiqdir. Əgər belə bir konfrans keçirilsə, mən çox sevinərəm. İştirak üçün də əvvəlcədən icazə istəyəcəyəm”.

Konfrans çərçivəsində ”Heydər Əliyevin təhsil siyasəti: jurnalist peşəkarlığının artırılmasında təhsilin rolu” mövzusunda dəyirmi masa da keçirildi. Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri






bağlı düşüncələrini əks etdirən videoçarx nümayiş etdirildi.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov öz çıxışında medianın sürətli inkişafını Azərbaycanın sürətli inkişafı, hər gün arealı böyüyən quruculuq prosesi, ölkəmizin dünyada lider mövqeyinin güclənməsi ilə əalqələndirdi. O bildirdi ki, medianın peşəkarlığının artırılması, iqtisadi dayaqlarının gücləndirilməsi Azərbaycan dövlətinin bütün inkişaf mərhələlərində informasiya siyasətinin prioritetlərindən olub.

Prezidentin ”Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı barədə danışan Əhməd İsmayılov bildirdi ki, II Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra başlanan islahatlar, o cümlədən ”Media haqqında” Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləyən əsas addımlardandır: ”Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq imkanının verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin edib. Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirib, rəqabət qabiliyyətini artırıb”.

Sonra panel müzakirələr başladı. Moderatorluğunu Rafiq Həşimovun etdiyi müzakirələrdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin deputatı Anar İsgəndərov,



Milli Məclisin deputatı, əməkdar jurnalist Vüqar Rəhimzadə, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini, Rusiyanın əməkdar jurnalisti, Azərbaycan Yazıçılar Birliyinin üzvü Mixail Qusman, YAP İdarə Heyətinin üzvü və Veteranlar Şurasının sədri Arif Rəhimzadə iştirak edirdi.

AQUPDK-nin sədri Bahar Muradova panel müzakirələrdə mətbuatın demokratiyada, inkişafda olan rolundan danışdı. O bildirdi ki, bir cəmiyyət inkişaf etdikcə, bu tərəqqi özünü mətbuat sahəsində də göstərir: ”Mətbuatın yaranması, keçdiyi yol və əldə etdiyi uğurlar barədə danışarkən bir şey nəzərə almalıyıq ki, müstəqilliyimizin tarixi 100 ildən bir qədər artıqdırsa, mətbuatımızın yaranma tarixi onu da qabaqlayır. Bu baxımdan,müstəqil dövlətlərin qurulması, inkişaf etməsi həm də elə mətbuatın əldə etdiyi nailiyyətdir. Azərbaycan mətbuatı özünün ən yüksək inkişaf dövrünü məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində yaşayıb. Ulu Öndərin bu sahədə ən böyük xidmətlərindən biri senzuranın ləğvi olub. Heydər Əliyev hər zaman mətbuatı azad görmək istəyirdi”.

Deputat Anar İsgəndərov öz çşında bildirdi ki, bu gün ölkəmizdə, güclü və nüfuzlu mətbuat mövcuddur: ”Media ordusu Azərbaycan tarixini və həqiqətlərini dünyaya çat-



dırmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edib və bu istiqamətdə mühüm fəaliyyət göstərib. Azərbaycan mətbuatı öz tarixi boyunca şərəfli yol qət edib, etimadları doğruldub”.

Milli Məclisin deputatı, əməkdar jurnalist Vüqar Rəhimzadə öz çıxışında bildirdi ki, jurnalistlərin bayramı həm də cəmiyyətin, vətəndaşların bayramıdır: ”Juranlist hazırladığı materialı bütün insanlar üçün hazırlayır. Bu yubiley bayramı həm də bizim xalqımızın bayramıdır. Ulu Öndərimiz Heydər Əliyev hər sahədə olduğu kimi, mətbuata da böyük önəm verirdi. Mətbuata diqqət , qayğı hər zaman hakimiyyətin proritetlərindən olub. Buna görə də bu gün peşəkar jurnalistika mövzuddur. Zaman bizə göstərdi ki, senzuranın ləğv edilməsi çox vacib bir qərar oldu. Bu qərar bu gün jurnalistikanın inkişafına öz töhvəsini verdi. Bu gün Azərbaycan jurnalistikası peşəkar şəkildə fəaliyyət göstərməyi qarşısına məqsəd kimi qoyub və bu yöndə uğur qazanmağa davam edir”.

”Təklif edirəm ki, Prezident İlham Əliyevin medianın inkişafında oynadığı rol barədə noyabr ayında ayrıca konfrans keçirək”-bu təklifi Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini, Rusiyanın əməkdar jurnalisti, Azərbaycan Yazıçılar Birliyinin

Vəfa İsgəndərovanın moderatorluğu ilə baş tutan müzakirədə jurnalistika və kommunikasiya sahəsində tanınmış simalar iştirak etdilər. Bakı Dövlət Universitetinin professoru, Əməkdar jurnalist Qulu Məhərrəmli jurnalistika ixtisasının adının və tədris proqramının müasir tələblərə uyğun şəkildə yenilənməsi barədə təklif səsləndirilib: ”Adətən jurnalistika fakültəsinə birinci kursda daxil olan tələbələr romantik düşüncələrlə gəlirlər. Lakin bir müddət sonra anlayırlar ki, bu sahədə romantik yanaşmadan uzaqlaşmalı, reallıqları obyektiv şəkildə çatdırmaq lazımdır. Fikrimcə bu sahənin sürətlə dəyişməsi, rəqəmsal medianın inkişafı və jurnalistdən gözlənilən bacarıqların artması dəyişikliyi də zəruri edir. Klassik fənlərlə müasir jurnalisti yetişdirmək çətinləşdiyindən, proqram həm nəzəri bilikləri, həm də praktiki bacarıqları əhatə etməli, istiqamətlər dəqiq müəyyənləşdirilməlidir. ”Jurnalistika” adının ”Kommunikasiya və jurnalistika” kimi anlayışla əvəzlənməsi bu sahədəki dəyişiklikləri daha yaxşı dolğun ifadə edər.”

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu ötən ildən bəri jurnalistikanın tədris proqramının dəyişməsini gözlədiyini dedi: ”Tədris edilən proqram müasir dövrün tələblərinə cavab verməlidir. Bu, təkcə texnoloji yeniliklərə uyğunlaşma ilə məhdudlaşmır, həm də, informasiya cəmiyyətinin çağırışlarına, yeni peşə standartlarına və jurnalistikanın transformasiyasına cavab verən bir yanaşma tələb edir. Bizim ”Media savadlılığı” ixtisaslaşması barədə təklifimiz də var və bu gün təkcə jurnalistlər deyil, cəmiyyətin bütün üzvləri üçün media savadlılığı zəruridir. Buna görə də bu sahənin gələcək jurnalistlərə ayrıca öyrədilməsi vacib şərtdir”.

***Lalə Mehralı***

# İslam dünyasının həmrəyliyi




***Azərbaycanın müsəlman dünyası ilə əlaqələrinin genişlənməsi prosesi son dövrlər daha intensiv xarakter almışdır. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan töhfəsini verir.***

Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESCO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir. Azərbaycan İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılıb və təhqir olunubdur. 30 ilə yaxın erməni işğalına məruz qalmış Azərbaycanın 20 faizə yaxın torpağı işğal altında idi. BMT-nin Qarabağın Azərbaycana məxsus olduğunu rəsmi sənədlərlə təsdiqləməsinə baxmayaraq, qurum ötən 30 ildə münaqişənin həlli üçün heç bir müsbət addım atmadı. Özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışdı. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edərək sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladı. Bu gün Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycan sülh prosesinə sadiqdir. Azərbaycan Ermənistanla münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün ciddi addımlar atır.

Vətən müharibəsi zamanı ICESCO-nun ölkəmizin haqq işini dəstəkləyən bəyanatlar verməsi və müharibədən sonra bölgəyə texniki heyət göndərən ilk beynəlxalq təşkilat olması Azərbaycanda yüksək qiymətləndirilir.

## 10 BÖLGƏDƏ 75 İRS ABİDƏSİ ZİYARƏT EDİLİB

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ciddədəki katibliyinin dərc etdiyi "OIC" jurnalın növbəti nömrəsində 2025-ci ildə təşkilata üzv ölkələrdə həyata keçirilən tədbirlər, müxtəlif görüşlər, o cümlədən İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) xətti ilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində erməni işğalçıları tərəfindən dağıdılmış tarix-mədəniyyət abidələrinin vəziyyətinin yoxlanılması üzrə missiya barədə məqalələr dərc olunub. Məqalədə ICESCO-nun Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə Qarabağa ikinci texniki səhə missiyası göndərdiyi diqqətə çatdırılır, həmçinin "İslam dünyasında münaqişədən sonrakı dövrdə irsin idarə edilməsi" proqramı çərçivəsində mədəni, dini abidələrin qorunub saxlanılması vəziyyətini qiymətləndirmək istiqamətində görülən işlər barədə məlumat verilir. Missiya 2025-ci il aprelin 18-dən 30-dək Azərbaycanda olduğu müddətdə 10 bölgədə 75 irs abidəsini ziyarət edib. Mənbədə qeyd olunur ki, bu irs nümunələri sırasında məscidlər, kilsələr, muzeylər, tarixi abidələr, arxeoloji sahələr, qəbiristanlıqlar, ziyarətgahlar, görkəmli mədəniyyət xadimlərinin evləri, inzibati binalar və kollektiv yaddaşla əlaqəli digər məkanlar olub. Missiya onları sənədləşdirib, fotoşəkillər və videolar, habelə şahid ifadələrindən ibarət məlumat bazası yaratmaq üçün fəaliyyətə başlayıb.

## AZƏRBAYCANIN MİLLİ İRSİNİ BƏRPA ETMƏK VƏ QORUMAQ TƏŞƏBBÜSÜNƏ DƏSTƏK

Missiya arxeologiya, memarlıq və mədəni irsin idarə edilməsi üzrə İraq, İtaliya və İspaniyanı təmsil edən dörd müstəqil beynəlxalq ekspertdən ibarət olub. Bu mütəxəssislərin hər biri 20 ildən artıq təcrübəyə və zəngin elmi biliklərə malikdir. Missiyaya Romada yerləşən Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru Vebber Ndoro rəhbərlik edirdi. Ekspert qrupu, həmçinin Azərbaycan Mədəniyyət Nazirliyinin rəsmiləri, Qarabağ bölgəsində yerli hakimiyyət orqanlarının nümayəndələri ilə koordinasiya görüşləri keçirib. Bu görüşlərdə təcrübə mübadiləsi aparılıb və missiyanın əhatə dairəsini genişləndirmək üzrə sahə məlumatlarının toplanması müzakirə edilib. Missiya üzvlərinə vacib materiallar, arxiv sənədləri, irs abidələrinin pasportları, inventar kartları, arxiv fotoşəkilləri və texniki təsvirlər təqdim olunub. Mütəxəssislərdən ibarət komanda onların əsasında və apardıqları müşahidələrin nəticəsi olaraq yekun hesabat hazırlayır.

Məqalədə qeyd edilir ki, hesabatda miqyası vurğulanacaq ermənilər tərəfindən vurulmuş maddi və qeyri-maddi ziyan, dağıdılmış irs abidləri, talan halları və digər məsələlər yer alacaq. Bu səy Azərbaycanın öz milli irsini tam bərpa etmək və qorumaq, onu gələcək nəsillərə miras qoymaq təşəbbüslərini dəstəkləmək məqsədi daşıyır. Materialın sonunda Azərbaycan Prezidenti İlham Əliyevin ICESCO-nun təşəbbüslərinə, proqramlarına və layihələrinə dəstəyi vurğulanır.

## "İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI BİZƏ BİRMƏNALI DƏSTƏK OLDU"

Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Hələ müstəqilliyimizin ilk illərində erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu qeyd edilməlidir. İƏT Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstək göstərib. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan torpaqlarının 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul etmişdir. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqeyini diqqətdə saxlayaraq İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" adlı qətnamələr qəbul etmişdi. İƏT Azərbaycanın haqq işini hər zaman dəstəkləyib və bu, təşkilat üçün prioritet olaraq qalır. Bildiyimiz kimi, İƏT-in Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində hücumunu, atəşkəsi pozmasını, nəticədə azərbaycanlı əsgərlərin həlak olmasını və yaralanmasını kəskin şəkildə pisləyən bəyanat yaymışdı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu. Torpaqlarımızın işğaldan azad olunmasında hər zaman Azərbaycanı dəstəkləmişdir.

## MÜNASİBƏTLƏRİN MÖHKƏM TƏMƏLİ

Əlbəttə ki, müasir dünyamızda baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarıdır. Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ICESCO-nun Azərbaycanda istifadəyə verilmiş regional ofisinin fəaliyyəti münasibətlərin möhkəm təməl üzərində qurulduğunu göstərir. Əsrlər boyu sivilizasiyaların qovuşduğu məkan olan Bakıda yeni regional ofisin açılışı Mərkəzi Asiyanın ICESCO-nun üzvü olan dövlətlərinə xidmət göstərir. Regionun digər ölkələrinə də öz töhfəsini verməklə yanaşı, əməkdaşlıq və mükəmməllik ruhunun təşviqdir.

Xatırladaq ki, Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESCO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. ICESCO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyət günlərinin keçirilməsində ICESCO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək davamlı əlaqələrin mövcudluğundan xəbər verir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. Bu sırada Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, Heydər Əliyev Fondunun təşəbbüsü, İSESKO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum, "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" mədəniyyət ilinin açılış mərasimi, İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı, Dünya Dini Liderlərinin Bakı Sammiti və Ümumdünya Mədəniyyətlərarası Dialoq və digər tədbirlərin adlarını qeyd etmək yerinə düşər. 2-3 dekabr 2019-cu il tarixlərində ICESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan mədəni irs nümunələri - Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir.

## "AZƏRBAYCAN ÖZ MÜSBƏT TƏCRÜBƏSİNİ BAŞQA ÖLKƏLƏRLƏ BÖLÜŞƏRƏK, ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRƏ QİYMƏTLİ TÖHFƏSİNİ VERİR VƏ VERƏCƏKDİR"

Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ICESCO-nun üzvlüyünə iddia edə bilməz.

Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi şəhərin İslam sivilizasiyasının mərkəzlərindən biri kimi əhəmiyyətinin nümayişi üçün yaxşı fürsət olmuş oldu. 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsi idi.

Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

Azərbaycan dünyanın tolerant mərkəzlərindən birinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Azərbaycan Prezidenti çıxışlarının birində vurğulayıb: "Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq və qarşıdurma olmasın. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, davalar və qanlı toqquşmalar baş verir. Bu, əlbəttə ki, bizi çox narahat edir. Yenə də deyirəm, ümid edirəm ki, Azərbaycan öz müsbət təcrübəsini başqa ölkələrlə bölüşərək, ümumbəşəri dəyərlərə qiymətli töhfəsini verir və verəcəkdir".

***Nəzakət ƏLƏDDİNQIZI***

# “İki lider Rusiya-Azərbaycan münasibətlərində hər hansı problemi həll etməyə qadirdir”

***Leonid Kalaşnikov: ”Heç bir qüvvə dostluğumuza təsir edə bilməz. İstər Rusiyada, istərsə də Azərbaycanda heç bir millətçilik istəkləri bizim yaxşı münasibətlərimizi, insani bağlarımızı qıra bilməyəcək”***

## RƏY



Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Rusiya-Azərbaycan münasibətlərinin perspektivini ”Moskva-Baku” portalına şərh edib. Komitə sədrinin fikirlərini oxucularımıza təqdim edirik.

”Bu vəziyyətdə mənim ürəyim ağrıdı. Axı, ölkələrimiz bir-birinə çox mehribandır. Bizim liderlərimizin də çox səmimi münasibətləri var. Bunu şəxsən mən görmüşəm, bilirəm. Strateji müttəfiqliyimiz iqtisadiyyatda, humanitar sahədə özünü göstərir, ölkələrimizi insani münasibətlər bağlayır. Son illər münasibətlərimizin müsbət inkişafı sevindirməyə bilməz.

Heydər Əliyeviç Əliyevin tapşırığına əsasən İlham Əliyev Rusiya ilə strateji, yaxşı münasibətləri inkişaf etdirməkdə davam etdi. Ölkələrimiz qarşılıqlı faydalı istiqamətlərdə irəliləyiblər.

Son həftələrdə baş verənlər Rusiya-Azərbaycan münasibətlərinin yaxşı olmasını səmimiyyətlə müdafiə edənlər, bu mövzuya qərq olanlar, dövlətlərimizin sabit inkişafı və qüdrətini müdafiə edənlər arasında ciddi narahatlıq yaratmaya bilməz. Amma gördüyümüz kimi, həmişə olduğu kimi, yaranmış vəziyyətdən qazanc əldə etməyə, hansısa siyasi xal qazanmağa çalışan, bu və ya digərini günahlandırmağa çalışanlar da var. Mən belə oyunların əleyhinəyəm. Çünki mən bilirəm ki, Rusiya ilə Azərbaycanın, Putinlə Əliyevin əslində necə münasibətləri var.

Yadımdadır, 90-cı illərdə çətin günlər olanda, Azərbaycan yol ayrıcında olanda Heydər Əliyev ruslardan xahiş edirdi ki, ölkədən çıxmasınlar. Onlar qulaq asdılar, ona inandılar və qaldılar. Müdrik Heydər Əliyev respublikanın parçalanmasına imkan vermədi. Rusiya üçün çətin günləri də xatırlayırıq. Və prezident Putin necə gəlib ölkəni sakitləşdirdi. Ona görə də münasibətlərimizdə nə varsa, onu dəyərləndirməliyik.

Ola bilsin ki, bu sözlər kiməsə adi görünəcək, amma mənə elə gəlir ki, iki lider sakit, düşüncəli şəkildə hər hansı problemi bacarıqla həll etməyə qadirdir. Ən çətin anlarda belə vaxt tapıb, telefonu götürüb, bir-birlərinə zəng edib bütün məsələləri həll ediblər. Heç bir qüvvə dostluğumuza təsir edə bilməz. İstər Rusiyada, istərsə də Azərbaycanda heç bir millətçilik istəkləri bizim yaxşı münasibətlərimizi, insani bağlarımızı qıra bilməyəcək. Mən buna tam əminəm”, - Kalaşnikov bildirib.

***Tərcümə - Elçin***



# Rusiya ordusunda muzdlular döyüşəcək

*Vladimir Putin buna rəsmən icazə verib*



**Rusiya Federasiyası hər ay təxminən 30 min əsgər cəlb edir. Ancaq avropalı mənbələrə görə bu nisbət ayda 40 minə çata bilər. Rusiya prezidenti Vladimir Putin səfərbərlik zamanı əcnəbilərə Rusiya silahlı qüvvələrində xidmət etməyə icazə verən fərman imzalayıb. Əvvəllər buna yalnız fövqəladə və ya hərbi vəziyyət, eləcə də silahlı münaqişə zamanı icazə verilirdi. Bu barədə çərşənbə axşamı, iyulun 8-də ”The Moscow Times” məlumat yayıb. Putin həmçinin yaş həddinə çatmış yüksək ixtisaslı mütəxəssislərə xarici kəşfiyyat, FSB və ya dövlət təhlükəsizlik orqanlarında xidmət üçün yeni müqavilələr bağlamağa icazə verib. Bir gün əvvəl Kreml rəhbəri vətəndaşlığı olmayan şəxslərə Rusiya silahlı qüvvələrində müqavilə əsasında xidmət etməyə icazə verən qanun imzalayıb. Bütün təşəbbüslər ordunun doldurulmasına yönəlib. Müqavilələr səfərbərlik başa çatana, hərbi vəziyyət bitənə və ya müharibə dövrünün sonuna qədər bağlanacaq.**

21 sentyabr 2022-ci il tarixli ”qismən səfərbərlik haqqında” fərman hələ də qüvvədədir. Bundan əlavə, iyunun 12-də Putin həmçinin MDB ölkələrindən olan hərbçilərə 2027-ci ilə qədər barmaq izi, fotoşəkil çəkmədən və tibbi müayinədən keçmədən Rusiya ərazisində olmağa icazə verib. Bu tədbir onların arvadlarına və uşaqlarına şamil edilir. Bəyan edilən məqsəd strateji tərəfdaşlığı gücləndirməkdir. Amerika kəşfiyyatının məlumatına görə, Rusiya ordusu hər ay 30 minə yaxın əsgər toplayır. Avropa mənbələrinə görə, bu nisbət ayda 40 minə çata bilər. İyulun 2-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib ki, 2025-ci ilin əvvəlindən Rusiya Müdafiə Nazirliyi ilə 210 min nəfər müqavilə imzalayıb - ayda orta hesabla 35 min.

Bu nisbət, NATO-nun hesablamalarına görə, gündə təxminən min əsgər təşkil edən cəbhə xəttindəki itkiləri ödəməyə kifayət edir. Genişmiqyaslı müharibənin başlanğıcından bəri ümumi itkilər bir milyon insanı ötüb. 2024-cü ilin yanvarından 2025-ci ilin aprelinə qədər Rusiya ordusu 400 min insan itirərək Ukrayna ərazisinin 1%-dən azını ələ keçirdi. İyun ayında The Telegraph-ın mənbələri yeni səfərbərlik həyata keçirmək üçün təhlükəsizlik qüvvələrinin Putinə təzyiq göstərdiyini bildirdi. Aprel ayında ABŞ-ın Avropadakı qüvvələrinin baş komandanı Kristofer Kavoli Ukraynadakı Rusiya hərbçilərinin sayını 600 min nəfər hesab edirdi.

Qeyd edək ki, Rusiya Federasiyasının Cinayət Məcəlləsi muzdluluğa görə cinayət məsuliyyətini nəzərdə tutur. Belə ki, Rusiya Federasiyası Cinayət Məcəlləsinin 359-cu maddəsinə əsasən muzdluların cəlb edilməsi, maliyyələşdirilməsi, təlimi, habelə silahlı münaqişələrdə iştirakı səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Rusiya qanunvericiliyində muzdlu dedikdə, münaqişədə iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşamayan və maddi təzminat almaq məqsədi ilə hərəkət edən şəxs başa düşülür. Xatırladaq ki, 2022-ci ilin noyabrında Putin xarici vətəndaşlara Rusiya Federasiyası Silahlı Qüvvələrinin sıralarında xidmət etməyə icazə verən fərman imzalayıb.

***VƏLİ***

# Region erməni kimi qəddar və hiyləgər toplumdan xilas olur

Son iki yüz ildə erməni terror toplumunun azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər, qətliamlar ötən əsrin 90-cı illərindən başlayaraq daha amansız və qəddar formada davam etmişdir. 30 illik erməni işğalı nəticəsində Azərbaycanın şəhər və qəsəbələri dağıdılmış, mədəniyyət nümunələri, tarixi abidələri, məscidlər, mədrəsələr, məbədlər yerlə-yeksan edilmişdir. Bu vandal əməllərə bəzi aparıcı dövlətlərin, beynəlxalq təşkilatların susqunluq nümayiş etdirməsi ikili standartların nümunəsidir. Bu, həm də onu təsdiq edir ki, ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində törətdikləri vandalizm aktlarında bəzi dövlətlərin birbaşa və dolayısı ilə əlləri var. Hətta araşdırmalarla sübut edilir ki, Qarabağdan oğurlanan, talan edilən Azərbaycanın mədəni irsinin nümunələri Fransaya, Hindistana, Yunanıstana, ABŞ-a və digər ölkələrə daşınıb. Təbii ki, belə əməl terrorçularla əməkdaşlıq, işbirliyi deməkdir. Dünya həqiqətən də ədalətli, hüququn aliliyinə hörmət edən dünya olsa idi terrorçu ermənilərlə əməkdaşlıq edib Azərbaycanın mədəniyyət nümunələrini oğurlayanlar mühakimə edilə və layiq olduqları cəzanı alarlar. Təəssüflər olsun hazırkı dünya ikili standartlardan ibarətdir. Vəhşiliyin pik nöqtəsi ondan ibarətdir ki, ermənilər işğal etdikləri ərazilərdəki bütün mədəni irsimizi məhv ediblər, pula keçən, zövqlərinə uyğun olanları isə Ermənistana aparıblar. Sonradan isə müxtəlif yollarla ABŞ-a, Hindistana, Fransaya, Yunanstana, Kanadaya, Livana və digər ölkələrə dəstəkçilərinə pul qarşılığı olaraq satıblar. Erməni vəhşi toplumu Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri, ümumilikdə 67 məsçiddən 65-ni tamamilə məhv edib, digər 2-ni isə müxtəlif iyrənc məqsədlər üçün istifadə edib. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir.

## Ağdam erməni vəhşiliyinin nəticəsi olaraq tamamilə dağıdılıb

Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxanani, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

## Şuşanın qədim məskənləri erməni terrorunun qurbanı olub

Ermənistan terrorçularının təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır. Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Qız məktəbi, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir. Bu vəhşilik, vandalizm ancaq erməni terrorçularına xas xüsusiyyətdir. Digər millətlər, hansısa toplumlar tərəfindən belə bəşəri cinayətlərin törədilə biləcəyi təsəvvür edilmir. Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir". Birmənalı mövqe ondan ibarətdir ki, Şuşa Qarabağımızın incisidir. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri yaranır, ticarət daha sürətlə inkişaf edirdi. Hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar.



## Azərbaycan döyüş meydanında qisasını aldı

Hələ XIX əsrin ortalarından başlayaraq Şuşanın mədəni həyatında bir canlanma baş verib. Azərbaycan dramaturgiyasının banisi M.F.Axundov öz komediyalarını geniş şəkildə yaymaq məqsədi ilə 1852-ci ildə teatr tamaşalarının intişar tapdığı Şuşa qalasına göndərək, arzusunu reallaşdırıb. V.Şekspirin "Otello"su Azərbaycanda ilk dəfə 1893-cü ildə şuşalı müəllim, dramaturq və jurnalist Haşım bəy Vəzirov tərəfindən tərcümə edilərək səhnələşdirilib. Daha sonra C.Məmmədquluzadənin "Ölülər" tragikomediyası ilk dəfə 1916-cı ildə Xurşudbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulmuşdu. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur. İşğal nəticəsində bütün sivil dünyanın böyük həsrət, bəzən isə yanğı ilə baxdığı sənət məbədi olan Şuşa və Şuşanın mədəniyyət ocaqları erməni vandalları tərəfindən dağıdıldı, viran edildi. Lakin Şuşanı xəritədən silməyi, ən azı özlərininki edə bilmədilər. Çünki Şuşanın qalaları, oradakı müqəddəs ruhlar imkan vermədi. Müqavimət göstərdilər, o zamana qədər ki, 8 noyabr 2020-ci ildə Azərbaycan əsgəri Şuşaya daxil olub, erməni vəhşilərini şəhərdən qovdu.

Mövcud araşdırmalarla sübuta yetirilir ki, erməni vəhşiliyi yalnız Qarabağın və ətraf rayonların işğalı zamanı tarixi, memarlıq nümunələrinin dağıdılması, talan edilməsi ilə yekunlaşmır. Bu vəhşi toplum hələ ötən əsrin əvvəllərindən, sonrakı mərhələdə isə 88-ci ilin əvvələrindən başlayaraq tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda bizlərə məxsus irsi də dağıdıb, yer üzündən silib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 491 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə azərbaycanlıların sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Camə məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Qala da bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, hazır da Urud qalasının yalnız xarabalıqları qalır. Tarixi Azərbaycan şəhərimiz olan İrəvanda bir dənə də olsun memarlıq nümunəsi, abidə, məscid qalmayıb, hamısını ermənilər dağıdıblar. Lakin əminlik var ki, Şuşaya, Xankəndinə, Əsgərana, Xocavəndə və digər işğal olunmuş ərazilərimizə qayıtdığımız kimi bir gün Qərbi Azərbaycan torpaqlarımıza da qayıdacağıq.

## Şuşa dirçəlir, qurulur, bərpa edilir

Şuşanın azad edildiyi gün Fateh Sərkərdə, Prezident İlham Əliyevin xalqa təbrik müraciətində dediyi fikirlər yada düşür: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!". Bəli, bu gün Şuşa dirçəlir, qurulur, bərpa edilir. Artıq dağıdılmış dini mərkəzlərimiz bərpa və təmirdən sonra istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərin ziyarət ediblər və dövlətimizin başçısı məscidlərə Məkkədən gətirilmiş "Qurani-Şərif"i hədiyyə edib. Şuşa şəhərindəki Saatlı məscidini ziyarət edərkən bildirib ki, düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb: "Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik".

İşğaldan azad edilən ərazilərdə aparılan təmir, tikinti, bərpa işlərindən sonra qayıdan insanlar arasında şuşalılar da var. Cari ilin mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ilk yaşayış kompleksinin açılışı olub. Yaşayış kompleksində ilk olaraq 20 ailə, o cümlədən 88 nəfər yerləşib. 23 dördmərtəbəli binadan ibarət yaşayış kompleksi 8 hektar ərazidə inşa edilib. 450 mənzildən, o cümlədən 28 ədəd birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beş otaqlı mənzildən ibarətdir. Müvafiq olaraq 300 və 500 mənzildən ibarət ikinci və üçüncü yaşayış kompleksinin tikintisi planlaşdırılır. Azərbaycanın mədəniyyət paytaxtı, qədim şəhərimiz Şuşada bu günə qədər çoxsaylı yerli və beynəlxalq miqyaslı konfranslar, seminarlar, festivallar keçirilir. Bütün bunlar bir daha Şuşamızın Qafqazın incisi, Qarabağımızın baş tacı olduğunu təsdiqləyir.

Faktiki Azərbaycan erməni kimi hiyləgər, qəddar düşməni məhv etməklə regionda yeni reallıqlar yaratdı. Artıq əminliklə demək olar ki, regionumuz terrorçu xislətli və əməli ermənı vəhşilərindən xilas olub və rahat nəfəs alır. Bundan sonra bu tolum başını qaldırmağa və yeni cinayətlər törətməyə cəhd edərsə, tamamilə məhv ediləcək. Ona görə də, sakit və dinc durmalı, Azərbaycanın istənilən tələbinə boyun əyməlidir.

***İLHAM ƏLİYEV***

# Milli Mətbuat 150:

## BDU-jurnalistika fakültəsi sələfimizin xələfi kimi

VIII YAZI

Milli mətbuatımızın 150 illik yubileyi günlərində bir əsrə yaxın, yəni 97 il ölkəmizə jurnalist kadrları hazırlayan, bununla da qocaman mətbuatımızın-sələfimizin bütün dövrlərində ardıcılı-xələfi missiyasını həyata keçirən Bakı Dövlət Universitetindən söhbət açmamaq günah olar. Çünki BDU-nun jurnalistika fakültəsi həqiqətən də 150-nin 97-sinin hər anında sələfimizin xələfi ola bilib. Bunu həm fakültənin dəyərli müəllimlərinin, həm də onların yetişdirdiyi minlərlə jurnalistin ötən illərdə mətbuatımıza verdiyi töhfələrdə aydın şəkildə görmək olur. Mətbu tariximizi yaşadan, dünəndən bu günə gəlməsi yoluna məşəl tutan tövsiyələr...

Həsən bəy Zərdabinin sinəsini odun-alovun qarşısına verib həyatını təhlükə ilə üz-üzə qoyaraq, təhdidlərlə üzləşərək yaratdığı "Əkinçi"nin- Azərbaycanın ilk mətbu orqanın dayanıqlı olması, daha sonra isə şaxələnməsi üçün peşəkar kadrlara ehtiyac olacaqdı. Böyük məktəb olan sələfimizin Nəcəf bəy Vəzirov, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Əsgər ağa Gorani, Əhsənül-Qəvaid (Hacı Məmmədsadıq), Ələkbər Heydəri və digər əməkdaşları, eləcə də mətbu orqanla kənardan əməkdaşlıq edən onlarla jurnalistləri estafeti bir gün Əlimərdan bəy Topçubaşova, Əli bəy Hüseynzadəyə, Məhəmməd ağa Şahtaxtinskiyə, Cəlil Məmmədquluzadəyə, Mirzə Ələkbər Sabirə, Abbas Səhhətə, Ömər Faiq Nemənzadəyə, Hüseyn Cavidə, Məmməd Səid Ordubadiyə, Əliqulu Qəmküsara, Əli Nəzmiyə, Üzeyir bəy Hacıbəyova, Ömər Faiq Nemanzadəyə və adlarını çəkmədiyimiz müxtəlif dövrlərin mətbu orqanlarının qələm sahiblərinə verdiyi kimi, sonralar da mətbuat tarixində iz salanlar olmalı idi ki, onlara sələfimizin xələfləri deyə bilək.

### Jurnalistika fakültəsi: ilk olaraq Azərbaycanda

Təbii ki, Bakı Dövlət Universitetinin peşəkar kadr hazırlığı sistemində jurnalistika təhsilinin öz tarixi yeri və mövqeyi var. Keçmiş SSRİ-nin universitetləri arasında ali jurnalistika təhsilinin əsası ilk olaraq 1928-ci ildə məhz Azərbaycan Dövlət Universitetində (BDU-da) qoyulmuşdur. Bu vaxtadək jurnalistika təhsili iki məktəbdə həyata keçirilirdi: Moskva Jurnalist İnstitutu və Leninqrad Mətbuat Texnikumunda. Bu barədə məlumatı həmin dövrdə Jurnalizm kafedrası tələbələrinin mətbuat orqanı sayılan "Student-jurnalist" qəzetinə tələbə Hadi Mirzəzadənin müsahibə aldığı kafedra müdiri S. Sredinski məlumat vermişdi.

Müəyyən fasilədən sonra isə-1945-ci ildən Filologiya fakültəsinin nəzdində yaradılan jurnalistika şöbəsi 25 il bir kafedra - Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrası ilə təmsil olunmuşdur. Kafedranın ilk müdiri təcrübəli qəzet işçisi, tanınmış dövlət və ictimai xadim Həsən Şahgəldiyev olmuşdur. Onunla birlikdə milli jurnalist kadrlarının hazırlığı işinə o dövrün görkəmli mətbuat işçiləri - İsrafil Nəzərov, Nəsir İmanquliyev, Qılman Musayev (İlkin), Rza Quliyev, Cümşüd Əzimov da qoşulmuşlar. Akademik Məmməd Arif Dadaşzadə, Mir Cəlal, Əli Sultanlı, Feyzulla Qasımzadə, Muxtar Hüseynzadə, Məmmədhüseyn Təhmasib, Hidayət Əfəndiyev, Məmməd Qazıyev gələcək jurnalistlərin ilk müəllimləri olmuşlar. 1950-ci ildə şöbənin birinci buraxılışı olmuşdur. İlk məzunlardan professor Şirməmməd Hüseynov, publisist Cavad Cavadlı, Saleh Tahirov hər zaman fəal yaradıcı həyat tərzi ilə seçilmişlər.

1969-cu ildə Jurnalistika şöbəsi fakültəyə çevrilmişdir. Onun ilk dekanı professor Nurəddin Babayev (1969-1970) olmuşdur. Sonrakı illərdə professor Şirməmməd Hüseynov (1970-1976), dosent Seyfulla Əliyev (1976-1979), professor Tofiq Rüstəmov (1979-1988), dosent Nəriman Zeynalov (1989), dosent Akif Rüstəmov (1989-1999), professor Yalçın Əlizadə (1999-2012), professor Şamil Vəliyev (2012-2016), professor Cahangir Məmmədli (2016-2017) dekan vəzifəsində çalışmışlar. 2017-ci ildən isə filologiya üzrə




elmlər doktoru, dosent Vüqar Zifəroğlu fakültənin dekanıdır.

Bu günə qədər fakültə 4 mindən artıq məzuna diplom verib. Yüksək ixtisaslı milli kadrlar hazırlığında Nəsir İmanquliyev, Nurəddin Babayev, Şirməmməd Hüseynov, Qulu Xəlilov, Famil Mehdi, Tofiq Rüstəmov, Nəsir Əhmədli, Əliş Nəbili və digər alim-pedaqoqların böyük xidmətləri olub. Təhsil bakalavr və magistratura pillələri üzrə Azərbaycan (əyani və qiyabi), rus (əyani) və ingilis (əyani) dillərində aparılır. Fakültədə tədris, elmi-metodik mərkəz kimi 4 kafedra, 2 studiya, 1 elmi tədqiqat laboratoriyası fəaliyyət göstərir: Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi, Mətbuat tarixi və ideoloji iş metodları, Televiziya və radio jurnalistikası, Beynəlxalq jurnalistika kafedraları, Tədris tele-radio studiyası, "İnternet" mərkəzi, Jurnalistika elmi-tədqiqat laboratoriyası.

Jurnalistika fakültəsi beynəlxalq əlaqələr sahəsində də öz ənənələrini formalaşdırmışdır. Həmin əlaqələrin əsası ötən əsrin 50-ci illərində Moskva Dövlət Universitetinin (MDU) Jurnalistika fakültəsi ilə qoyulmuşdur. Azərbaycanda jurnalistika üzrə ilk namizədlik dissertasiyasını Mətbuat tarixi kafedrasının professoru Şirməmməd Hüseynov MDU-da müdafiə etmişdir. Sonrakı onilliklərdə MDU-nun Jurnalistika fakültəsi ilə elmi və yaradıcılıq əlaqələri daha da intensiv xarakter almış və həmin əlaqələr bu gün də davam edir. Əvvəlki illərdə Beynəlxalq Jurnalistlər İttifaqı Konfederasiyasının xətti ilə hər il fakültənin bir tələbəsi təhsilini MDU-nun Jurnalistika fakültəsində davam etdirib. ABŞ-nin İndiana və Kolorado universitetləri, Fransanın Lil Jurnalistika Məktəbi, Türkiyə, Macarıstan, Polşa və Gürcüstanın jurnalistika qurumları və təhsil müəssisələri ilə elmi və yaradıcılıq əlaqələri inkişaf etdirilir. Son üç ildə fakültənin 6 müəllimi xarici ölkələrdə (ABŞ, Fransa, Türkiyə, Macarıstan, Polşa) elmi ezamiyyətdə olmuşlar.

### Həm müəllim, həm jurnalist, həm ədib, həm dərslik müəllifi

BDU-nun jurnalistika fakültəsinin müəllimləri ölkənin ən nüfuzlu jurnalistləri, siyasətçiləri, ədibləri olmaqla yanaşı, həm də bu təhsil ocağında yetişən minlərlə tələbənin əlinə alıb jurnalistikanın sirrini öyrəndiyi kitabların müəllifləridir. Beləliklə, jurnalistika fakültəsinin müəllimləri milli mətbuatımıza ikiqat əmək və zəhmət vermiş dəyərli insanlardır. Həm jurnalist kimi fəaliyyət göstərmək, həm jurnalistlərin yetişməsində müəllim kimi iştirak etmək, həm də jurnalistikanın ayrı-ayrı dövrlərdə inkişafına stimul verən ideyalarla zəngin, onun nəzəriyyəsindən, təcrübi tərəflərindən bəhs olunan kitabların müəllifi olmaq çağdaş mətbuata böyük xidmətdir. Böyük bir jurnalist nəsli elm xadimi və ictimai xadim olmuş, 1990-cı ildə Azərbaycan SSR Əməkdar jurnalisti, 1976-cı ildə Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülən, Azərbaycan mətbuatında özünəməxsus izlər salmış və yddaşımıza əsl mətbuat adamı kimi həkk olunan Nəsir İmanquliyevin 1966-cı ildə nəşr olunan "Jurnalistika məsələləri" kitabından dərs almışdır.

Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru olmuş Azərbaycanın görkəmli alim və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, ayrı-ayrı vaxtlarda "Nizami təqaüdü", "Qızıl qələm" mükafatı, "Əməkdar jurnalist" fəxri adı, Zərdabi adına mükafat, Yusif Məmmədəliyev adına mükafat, Məhəmməd Əmin Rəsulzadə adına mükafat alan və "Şərəf" ordeninə layiq görülən Şirməmməd Hüseynovun "Məhəmməd Əmin Rəsulzadə əsərləri" beşcildliyi, "Azərbaycan legionerləri", "Milli haqq və ədalət axtarışında", "Mənəvi irsimiz və gerçəklik", "Azərbaycan dilində ilk bolşevik nəşrləri" adlı kitabları, sözün həqiqi mənasında, dövrün peşəkar, tədqiqata meylli, araşdırmaçı jurnalistlərin yetişməsinə yol açan dəyərli əsərlərdir.

Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının professoru, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Jurnalistlər Birliyi və Azərbaycan Mətbuat Şurasının üzvü olmuş, Azərbaycan Respublikasının əməkdar jurnalisti, filologiya elmləri doktoru Nəsir Əhmədlinin "Jurnalistin vizual nitq mədəniyyəti", "Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə", "Kütləvi informasiya vasitələrin xaricə siyasi təbliğat sistemində", "Jurnalistin nitq mədəniyyəti", "Jurnalistika" ixtisası üzrə buraxılış işinin yazılması, tərtibi və müdafiəsi", "Jurnalistin nitq mədəniyyətinin əsasları", "Azərbaycan Beynəlxalq Radiosu: tarix və müasirlik" adlı kitabları ötən illərdə mətbuatın inkişafına öz töhfələrini verib.

1999-2012-ci illər Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı olmuş, 1966-cı ildə "Qızıl qələm" mükafatı laureatı, 1989-cu ildə əməkdar jurnalist fəxri adına, 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunan, 2000-ci ildə "Tərəqqi" medalına layiq görülən professor Yalçın Əlizadənin "Radiojurnalistikanın əsasları", professor Qulu Məhərrəmli ilə həmmüəllif olduğu "Azərbaycan efiri-tarix və müasirlik", bakalavr hazırlığı üçün "Ədəbi redaktə" fənn proqramı, "Radio jurnalistikası:təməl biliklər" adlı kitabları mətbu orqanlarla yanaşı, radio və televiziya üçün peşəkar jurnalistlərin hazırlanmasında mühüm rol oynayan sanballı əsərlərdir.

Azərbaycanın tanınmış jurnalisti, filologiya elmləri doktoru, professor, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri Cahangir Məmmədlinin 500-dən çox elmi, publisistik yazısı dərc olunub. Ədəbi tənqidə və jurnalistikaya dair 7 kitabın müəllifidir.

2004-cü ildə Bakı Dövlət Universitetində "İlin müəllimi" nominasiyasının qalibi, jurnalistika sahəsində bir neçə nüfuzlu mükafatın sahibi olan, Prezident təqaüdçüsü Cahangir müəllimin "Jurnalistikaya giriş", "Müasir jurnalistika", "Jurnalistikanın müasir inkişaf meylləri", "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi", "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi", "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" adlı dərslik və kitabları minlərlə jurnalistin yetişməsinə, jurnalistikanın sirlərini mənimsəməsinə xidmət edib. Unudulmaz Qulu Xəlilovun və Famil Mehdinin ədəbi nümunələrini oxuyan, məlumatı olan onlarla azərbaycanlı gənc məhz jurnalist olmaq, bu dəyərli müəllimlərdən dərs almaq istəyib. Belə də olub. Azərbaycanın ən ucqar rayonlarından belə Qulu Xəlilov və Famil Mehdi yaradıcılığının işığında özünü tapan yüzlərlə gənc elə onların əsərləri və jurnalistika dərsləri sayəsində görkəmli publisistlər ola biliblər.

Hazırda Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, MEDİA-nın Müşahidə Şurasının üzvü, filologiya elmləri doktoru Vüqar Zifəroğlunun tədqiqat sahəsi "Beynəlxalq jurnalistikada inhisarlaşma problemi və media korporasiyalar", "Azərbaycan kütləvi informasiya vasitələrinin qlobal informasiya məkanına inteqrasiyası", "İnformasiya təhlükəsizliyi müasir dövrün əsas problemi kimi", "Azərbaycan və KİV-ə qarşı informasiya müharibəsi" kimi aktual məsələləri özündə birləşdirir.

Hər birimizin mediada analitik və araşdırma məqalələri ilə tanıdığımız Vüqar Zifəroğlu ixtisasla bağlı 36 elmi məqalənin, 3 metodiki göstəricinin və dörd tədris proqramı, eləcə də "Beynəlxalq jurnalistikada etik normalar və Azərbaycan mətbuatı" və "Media imperiyası" adlı monoqrafiyaların müəllifidir. Bütün bu əsərlər jurnalistikanın müasir dövrünü özündə ehtiva etməklə yanaşı, çağdaş dövr jurnalistlərin bilməli, öyrənməli olduğu məsələləri özündə birləşdirir.

Onun unudulmaz müəllim və ustad jurnalist Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr edilmiş biblioqrafiyasının həmtərtibçisi olması isə sələfin xələfi olması, böyük saygı hissindən qaynaqlanır ki, müasir jurnalistlərin bunu olduğu kimi dərk etməyə böyük ehtiyacı var. O mənada ki, zaman-zaman onlar da sələflərinin xələfi ola bilsinlər. Jurnalistika fakültəsinin dünənki və bügünkü müəllimlərinin hər biri haqqında belə məlumat toplayıb təqdim etmək olar. Lakin bir qəzet yazısına bunları sığışdırmaq mümkün deyil. Odur ki, onların bir neçəsinin 150 illik mətbuat tarixinə verdiyi dəyərlərdən söhbət açmaqla, ümumilikdə əsrə yaxın fəaliyyəti olan jurnalistika fakültəsinin sələfimizin xələfi mənzərəsini yaratmaq istədim.

### Sələfin xələfi olmaq dəyəri

Əlbəttə, bir xalq o zaman xalq kimi tarixdə yaşayır ki, keçmişini, dəyərlərini unutmur, yaddan çıxarmır. Bu, milli-mənəvi, ailə dəyərləri kimi, bütün dəyərlərə, eləcə də haqqında söhbət açdığımız mətbu dəyərlərə də aiddir. O mətbu dəyər ki, 150 yaşlı qocamandır. Və bizim sələfimizdir. Belə isə vəzifəmiz xələfi olaraq onu yaşatmaq, arxivləşdirmək, yad ünsürlərdən, yanaşmalardan qoruyaraq gələcək nəsillərə çatdırmaqdır. Çünki sələfin xələfi ola bilmək özü ayrılıqda bir dəyərdir.

***Mətanət Məmmədova***

# Suveren Azərbaycanda kənd təsərrüfatının rəqəmsal siyahıyaalınması

***Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmışdır. İşğal dövründə yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuş, bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.***

Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla heç vaxt barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün böyük əzm və qətiyyət göstərdi. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərlə torpaqlarımızın işğalına son qoyuldu. Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müntəzəm müraciətləri Azərbaycan xalqının özünəinamını daha da gücləndirərək onu bir amal uğrunda birləşdirdi. Beləcə, hər bir müraciət müharibənin gedişatına və taleyinə güclü təsir göstərərək növbəti qələbələrin müqəddiməsinə çevrildi.

2023-cü il sentyabrın 19-20-də Müzəffər Azərbaycan Ordusunun apardığı bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etmiş oldu. Bununla da Azərbaycan işğala son qoyaraq dünya tərəfindən qəbul edilən suveren ərazisində konstitusiya quruluşunun bərpasına nail oldu. İşğaldan azad olunan ərazilərin təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu torpaqlarda kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə artıq işğala son qoyulandan qısa müddət sonra başlanmışdır. İşğaldan azad edilmiş ərazilərdə görülən işlərin sistemləşdirilməsi və vahid formada idarə edilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. Proqrama əsasən işğaldan azad edilmiş ərazilərdə kompleks şəkildə görüləcək işlərin icrası üçün tədbirlər planı hazırlanmışdır. Proqramda əhalinin məskunlaşması da daxil olmaqla iqtisadiyyatın bütün sahələri, o cümlədən, kənd təsərrüfatının dirçəldilməsi ilə bağlı tədbirlər də öz əksini tapmışdır. Burada kənd təsərrüfatı dövriyyəsinə yeni torpaq sahələrinin cəlb olunması, ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturunun formalaşdırılması, dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi hədəf kimi qarşıya qoyulmuşdur.

İşğaldan əvvəlki dövrdə Qarabağ və Şərqi Zəngəzur ərazisi yüksək kənd təsərrüfatı göstəriciləri ilə seçilir, ölkənin taxıl, pambıq, tütün, üzüm, ət, süd, yun və barama istehsalının əhəmiyyətli hissəsi həmin ərazilərin payına düşürdü. Bütün bunları nəzərə alaraq, regionun aqrar sahədə əvvəlki şöhrətini bərpa etmək məqsədilə lazımi tədbirlər və hazırlıq işləri davam etdirilir. Məskunlaşma prosesi ilə yanaşı olaraq kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər kənd təsərrüfatı vasitələri ilə təmin edilməsi istiqamətində dövlət tərəfindən tədbirlər də həyata keçirilməkdədir. Qeyd edək ki, bu bölgədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün böyük potensial mövcuddur.

Azad olunmuş ərazilərdə heyvandarlığın inkişafı üçün böyük potensialın olduğu məlumdur. Bu ərazilərdəki zəngin otlaq və yaylaqların mövcudluğu heyvandarlığın və arıçılığın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Statistik məlumatlara əsasən deyə bilərik ki, işğaldan azad olunmuş rayonların heyvandarlıq məhsullarının istehsalında xüsusi çəkisi yüksək olmuşdur. Belə ki, 1986-1989-cu illərdə ölkə üzrə iribuynuzlu malqaranın orta hesabla 15 faizi, xırdabuynuzlu mal-qaranın 20 faizi, ət istehsalının 15 faizi, süd istehsalının 15 faizi, yumurta istehsalının 10 faizi, yun istehsalının isə 20 faizi bu ərazilərin payına düşürdü.




Azad olunmuş torpaqlarda görülən ilk işlərdən biri də bu torpaqların əkilib-becərilməsi olmuşdur. Müharibənin başa çatdığı ilk günlərdən etibarən aidiyyəti dövlət qurumları tərəfindən işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb. İşğala son qoyulduqdan sonrakı dövrdə sözügedən ərazilərdə bir neçə növ kənd təsərrüfatı bitkiləri əkilmiş, təsərrüfatlarda iri və xırdabuynuzlu heyvanların saxlanılmasına başlanmışdır. Bitkiçilik məhsullarından əsasən buğda, arpa və şəkər çuğundurunun əkinləri üstünlük təşkil etmiş və əkin sahələrinin ölçüsü ildənilə artan dinamika üzrə inkişaf etməkdədir. Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli 544 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən cari ildən etibarən işğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşdığı və yaşadığı inzibati ərazi dairələrinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqların birillik və çoxillik əkinlərin aparılması üçün kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə müvəqqəti icarəyə verilməsinə başlanmışdır.

Qarabağ və Şərqi Zəngəzurda qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək aqrar sektorda böyük uğurlar əldə etmək olar. Bu uğurların mənbəyində bölgənin münbit torpaqları və zəngin su ehtiyatları dayanır. Məhsuldarlığın artmasında çox mühüm rol oynayan bu amillər investorların əraziyə cəlb olunmasına yol açacaq. Bu, həm əhalinin məşğulluğunun təmin edilməsində rol oynayacaq, həm də istehsalın yüksəlməsi ilə həmin rayonlarda kənd təsərrüfatı ilə yanaşı, emal sənayesinin də genişlənməsinə gətirib çıxaracaq. Nəticədə əhalinin ərzaq məhsulları ilə dayanıqlı təminatı yüksəlmiş olacaq, ixrac potensialını artırmaq imkanları yaranacaq və bu da öz növbəsində ölkəyə daxil olan valyutanın artması ilə müşahidə olunacaq.

Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə birbaşa dövlət dəstəyi olaraq subsidiyaların və vergi güzəştlərinin verilməsi, kənd təsərrüfatı təyinatlı əksər maşın və texniki vasitələrin idxal rüsumundan azad olunması kimi alətlərin tətbiqi bu sahədə inkişafa öz bəhrəsini verməkdədir. AnchorAnchorSon illər ərzində dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarların, müasir taxıl elevatorlarının və digər logistika obyektlərinin qurulması, habelə yol-nəqliyyat infrastrukturunun inkişafı, meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi hesabına suvarma suyu ilə təmin olunan torpaqların əhatəsinin genişlənməsi, gübrə, pestisid ilə təminatın yaxşılaşdırılması fermerlərin bazarlardakı mövqeyini möhkəmləndirmişdir. Aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının zənginləşdirilməsi məqsədilə kənd təsərrüfatında baş verən proseslər haqqında aktual məlumatların əldə edilməsini təmin etmək üçün Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması çərçivəsində Azərbaycanda da bu mühüm tədbirin həyata keçirilməsinə zərurət var idi.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.1.2.9-cu bəndində 2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıyaalınmasının keçirilməsi ilə bağlı tədbir öz əksini tapır.

Bu Sərəncamın icrası olaraq "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli, 357 nömrəli Qərarı ilə ölkə üçün müstəsna əhəmiyyətə malik olan bu tədbirin 2025-ci ilin 15 iyul-15 avqust tarixlərində keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabinetinin sözügedən qərarı ilə Tədbirlər Planı təsdiq edilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, digər aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilmiş və İstiqamətləndirici Komitə yaradılaraq tərkibi təsdiq edilmişdir.

Bu il keçiriləcək kənd təsərrüfatı siyahıyaalınmasının əvvəlki siyahıyaalmalardan başlıca fərqi, onun suveren Azərbaycanın bütün ərazilərini əhatə etməsidir. Yəni, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən 44 günlük müharibə nəticəsində işğaldan azad edilmiş ərazilərdə də ilk dəfə olaraq kənd təsərrüfatının siyahıyaalınması keçiriləcəkdir.

2025-ci ildə ölkəmizdə keçiriləcək siyahıyaalma zamanı hüquqi şəxslər siyahıyaalma vərəqələrini özləri, Dövlət Statistika Komitəsinin elektron informasiya sisteminə real vaxt rejimində daxil olmaqla dolduracaqlar (CAWI üsulu: Computer-Assisted Web Interviewing). Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə siyahıyaalma vərəqələri isə siyahıyaalmanın keçirilməsinə cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə (CAPI üsulu: Computer Assisted Personal Interviewing - kompüter vasitəsilə şəxsi müsahibə) doldurulacaq. Beynəlxalq qaydalara uyğun olaraq sorğu zamanı siyahıyaalma vərəqəsi üzrə məlumatlar respondentin şifahi cavabları əsasında, həmin cavabların düzgünlüyünü təsdiq edən hər hansı sənəd tələb edilmədən qeydə alınır.

Kağız formatında keçirilən siyahıyaalmalarla müqayisədə siyahıyaalmanın planşet tipli kompüterlər vasitəsilə keçirilməsinin bir sıra üstünlükləri vardır. Bu halda yekun məlumatların əldə olunmasına 7-8 ay az vaxt tələb olunur, 410 nəfərdən artıq işçinin 6-9 ay müddətinə işə qəbul edilməsinə, 1,2 milyon ədəd 10 səhifəlik siyahıyaalma vərəqəsinin çap olunmasına ehtiyac qalmır. Eyni zamanda siyahıyaalma məlumatları birbaşa elektron daşıyıcılara daxil edilir və kompüter operatorlarının səhv etmə ehtimalı aradan qalxdığı üçün yekun məlumatların keyfiyyəti artır, bir sayıcının sorğu keçirməli olduğu təsərrüfatların sayı artdığı üçün büdcə vəsaitinə qənaət olunur. Belə ki, 2015-ci ildəki siyahıyaalma ilə müqayisədə 2025-ci ildə keçiriləcək siyahıyaalma vərəqəsindəki sualların sayının 31-dən 37-dək artmasına baxmayaraq, CAPI üsulunun tətbiqi bir sayıcının yükünün 100 təsərrüfatdan 120 təsərrüfatadək artırılmasına şərait yaratmışdır. Siyahıyaalma başa çatdıqdan sonra planşet tipli kompüterlər onlardan səmərəli istifadəni təmin etmək məqsədilə Elm və Təhsil Nazirliyinə təhvil veriləcəkdir.

2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. Tədbir rayonun üç inzibati ərazi dairəsi üzrə səkkiz yaşayış məntəqəsində ümumilikdə 1942 təsərrüfatı əhatə etmişdir.

Sınaq siyahıyaalma zamanı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyələri, əvvəlki siyahıyaalmaların təcrübəsi, kənd təsərrüfatının yerli xüsusiyyətləri, aidiyyəti dövlət qurumlarının, beynəlxalq ekspertin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış siyahıyaalma vərəqəsi və onun doldurulması qaydaları, CAPI üsulu ilə əldə ediləcək məlumatların elektron formada daxil edilməsi üçün metodoloji əsasları və praktiki aspektləri özündə ehtiva edən xüsusi proqram təminatları təcrübi olaraq planşet tipli kompüterlərdə uğurla sınaqdan çıxarıldı.

Ümumilikdə, 2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyi təmin ediləcəkdir.

***Vaqif Rəsul***
***Dövlət Statistika Komitəsi Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri***

# Ucuz geyimin bahalı tərəfi: İkinci əl geyimlərin mənfi təsirləri



***Azərbaycanda ikinci əl geyim mağazalarına maraq son illərdə artmaqdadır. Buna səbəb həm ekonomik, həm də ekoloji və estetik yanaşmalardır. Bir çox insan həm keyfiyyətli, orijinal brend geyimləri daha münasib qiymətə əldə etmək, həm də fərqli və retro üslublu tərz yaratmaq üçün bu mağazalara üstünlük verir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İkinci əl geyim mağazaları (bəzən "second hand", "thrift store" və ya "vintage shop" kimi tanınır) müxtəlif səbəblərlə istifadə olunmuş, lakin yararlı və təmiz geyimlərin satışını həyata keçirən yerlərdir.

Azərbaycanda bu sahədə əsasən 3 tip fəaliyyət forması müşahidə olunur:

**1.** Fiziki mağazalar

**2.** Onlayn satış səhifələri (Instagram, Facebook, WhatsApp)

**3.** Xeyriyyə məqsədli ikinci əl geyim aksiyaları və bazarları

## Bakı və böyük şəhərlərdə populyar mağazalar




**1.** Second Life Baku

* Bakıdakı ən tanınmış ikinci əl geyim mağazalarından biridir.
* Burada Avropadan gətirilmiş orijinal brend geyimlər münasib qiymətlərlə satılır.
* Bəzi geyimlər vintage və retro üslubundadır.
* Sosial mediada aktivdirlər.

**2.** La Boutique Vintage

* Daha çox retro və klassik tərzli geyimlər təklif edir.
* Hədəf auditoriyası kreativ və fərqli geyim tərzi axtaran gənclərdir.

**3.** Chelebi Store

* Orijinal brend məhsulların ikinci əl və ya outlet versiyalarını satır.
* Tez-tez "sample sale" və ya "vintage bazar" tədbirləri keçirir.



**4.** Bakı Vintage Market

* Aylıq və ya dövri olaraq keçirilən yarmarka tipli tədbirdir.
* Burada fərdi satıcılar və dizaynerlər ikinci əl geyim və aksesuarlarını təqdim edir.

## Onlayn platformalar

Instagram səhifələri:

* @secondhandbaku
* @thriftstore_baku
* @vintagestore.az
* @cheap_clothes_baku

Bu səhifələrdə geyimlərin şəkli, ölçüsü və qiyməti paylaşılır və sifarişlər DM və ya WhatsApp üzərindən qəbul olunur. Bəziləri çatdırılma xidməti də təklif edir.

Facebook qrupları:

* "Bakı Second Hand"
* "Second Hand Clothes Baku"
* Bu qruplarda həm fərdi satışlar, həm də mübadilə (barter) təklifləri olur.

## Satılan məhsullar:

* Kişi, qadın və uşaq geyimləri
* Aksesuarlar (çantalar, şərflər, bijuteriyalar)
* Ayaqqabılar
* Bəzən ev tekstili (pərdə, dəsmal, çarpayı dəstləri)

## İkinci əl mağazalarının üstünlükləri

Qiymət- Yeni məhsullardan qat-qat ucuzdur

Ekoloji- Tullantının azalmasına və təkrar istifadəyə töhfə verir

Unikal üslub- Kütləvi geyimlərdən fərqli, fərdi stil yaratmaq imkanı verir

Brend əlçatanlığı- Brend məhsulları daha ucuz qiymətə almaq mümkündür

## Çətinlik və məhdudiyyətlər

* Ölçülərdə məhdud seçim
* Bəzən istifadə izləri və ya kiçik defektlər
* Gigiyena ilə bağlı şübhələr (lakin tanınmış mağazalar hamısını yuyulmuş və təmiz şəkildə təklif edir)
* Hər kəsin psixoloji olaraq ikinci əl geyimə rahat yanaşmaması

Azərbaycanda ikinci əl geyim mağazaları artıq təkcə maddi çətinlik yaşayanların deyil, həm də moda ilə maraqlanan, ekoloji şüurlu, unikal stil axtaran şəxslərin seçiminə çevrilib. Yaxın gələcəkdə bu sahənin daha da inkişaf edəcəyi, yeni butiklərin və onlayn platformaların yaranacağı gözlənilir.

İkinci əl geyim almağın bir sıra üstünlükləri olsa da (məsələn, ucuz qiymət, ekoloji yanaşma, fərdi stil), bəzi mənfi tərəfləri və riskləri də mövcuddur. Bu risklər həm gigiyenik, həm psixoloji, həm də praktik səviyyədə özünü göstərə bilər.

## İkinci əl geyim almağın əsas mənfi tərəfləri

*Gigiyenik risklər*

İkinci əl geyimlərin əvvəlki sahibləri tərəfindən necə istifadə edildiyi məlum deyil. Bu səbəbdən müəyyən gigiyenik təhlükələr yarana bilər:

* Dəri xəstəlikləri riski (məsələn, göbələk infeksiyaları, bit, uyuz və s.)
* Allergik reaksiyalar (tozv ə ya əvvəlki istifadəçidən qalan maddələr səbəbilə)
* Gigiyenik təmizlənmə zəif aparılıbsa, bakteriya və virusların qalma ehtimalı
* Ayaqqabı və alt geyimlərdə bu risk daha yüksəkdir (çünki birbaşa dəri ilə təmasdadır)

Alınan ikinci əl geyimlər mütləq yüksək temperaturda yuyulmalı, mümkün olduqda buxar və ya dezinfeksiyaedici maddələrlə təmizlənməlidir.

## Psixoloji və sosial məsələlər

* Bəzi insanlar üçün "başqasının geydiyi geyimi geymək" fikri narahatlıq və ya psixoloji diskomfort yarada bilər.
* İctimai baxış bəzən mənfi ola bilər, xüsusilə "yeni geyim geymək" status göstəricisi kimi qəbul edilən cəmiyyətlərdə.
* Ailələrin bəziləri uşaqlarına ikinci əl geyim geydirməyi uyğun saymır.



## Uyğun ölçü və model problemləri

* İkinci əl mağazalarda ölçülər təsadüfi və məhduddur, istədiyin ölçüdə və modeldə geyim tapmaq çətindir.
* Geyimlərin bədənə uyğunluğu zəif ola bilər.
* Qüsurlar (ləkə, tikiş problemi, rəng solması, düymə çatışmazlığı və s.) mümkündür.

Almazdan əvvəl geyimi diqqətlə yoxlamaq və sınamaq tövsiyə olunur (əgər mümkündürsə).

## Dəyər və keyfiyyətlə aldanma riski

* Bəzi satıcılar ikici əl geyimi orijinal və ya "yenidir" adıyla təqdim edə bilər.
* Saxta brend məhsullar ikinci əl adı ilə satıla bilər.
* Qiymət bəzi hallarda yeni geyimlərə yaxın ola bilər (xüsusilə vintage və ya retro geyimlərdə).

## Qanuni və əxlaqi narahatlıqlar

* Bəzi geyimlər oğurluq malı ola bilər və ya icazəsiz şəkildə satılır.

Ardı Səh. 11

ARAŞDIRMA

# Ucuz geyimin bahalı tərəfi: İkinci əl geyimlərin mənfi təsirləri



Əvvəli Səh. 10

* İanə üçün verilmiş geyimlərdən kommersiya məqsədi ilə sui-istifadə oluna bilər.

## Stil və trendlə uyğunsuzluq

* Müasir trendlərə uyğun geyim tapmaq çətin ola bilər.
* Bəzi geyimlər çox köhnəlmiş və ya dəbdən düşmüş ola bilər.
* Moda yönümlü insanlar üçün ikinci əl seçimləri məhdud görünə bilər.

İkinci əl geyim almaq qənaətcil və ekoloji baxımdan müsbət olsa da, alıcı bu prosesə şüurlu yanaşmalı, gigiyena və keyfiyyət məsələlərini diqqətlə yoxlamalıdır. Xüsusilə alt geyimlər, uşaq geyimləri, ayaqqabılar və birbaşa dəri ilə təmasda olan məhsullar daha diqqətlə seçilməlidir.

Dünyada ikinci əl geyim sənayesi son illərdə böyük sürətlə inkişaf edir və bu sahə artıq təkcə maddi imkanı məhdud şəxslərə deyil, həm də ekoloji düşüncəli, stil sahibi və şüurlu istehlakçı profillərinə xitab edən qlobal moda hərəkətinə çevrilib.

## Dünyada ikinci əl geyim bazarı: Ümumi mənzərə



*İkinci əl geyim sənayesi necə böyüyür?*

* 2023-cü ilin statistikalarına görə, qlobal ikinci əl geyim bazarının dəyəri 177 milyard dolları keçib.
* ThredUp və GlobalData kimi analitik şirkətlərin hesabatlarına əsasən, bu bazar 2030-cu ilə qədər təxminən iki dəfə böyüyəcək.

## Ekoloji tərəfi və davamlı moda

İkinci əl geyimlərin yayılması "davamlı moda" (sustainable fashion) anlayışının bir hissəsidir. Hazırda tekstil sənayesi dünyanın ən çox çirkləndirən sahələrindən biridir:

* 1 köynəyin istehsalında 2700 litr su sərf olunur
* Tekstil tullantılarının təkrar emalı aşağı səviyyədədir
* Fast fashion brendləri ildə milyonlarla geyimi zibilə atır

## Bu problemlərə cavab olaraq, ikinci əl geyim istifadəsi:

* Tullantının azaldılması
* Suyun və enerji resurslarının qorunması
* İstehlakçının daha etik seçimlər etməsi üçün bir vasitə rolunu oynayır.

Dünyada ikinci əl geyim yalnız ucuz alternativ deyil, həm də:

* ekoloji məsuliyyətli seçim,
* şəxsi tərzin ifadəsi,
* texnologiya dəstəyi ilə inkişaf edən qlobal trend halını alıb.

***Ayşən Vəli***

# İran və HƏMAS-ın öz şərtləri

İrana qarşı 12 günlük müharibənin sona çatmasının regionu sabitləşdirəcəyi və İsraili hərbi fəaliyyətini azaltmağa sövq edəcəyi gözləntilərinə baxmayaraq, Yaxın Şərq münaqişə əlamətlərini saxlayır. "Air Force One" telekanalında jurnalistlərə açıqlama verən ABŞ prezidenti Donald Tramp deyib ki, Tehran hələ də uranın zənginləşdirilməsi üzrə milli proqramından imtina etdiyini təsdiqləməyə razı olmayıb. İyunun 13-də iki regional rəqib arasında ekzistensial qarşıdurmanı yeni səviyyəyə çıxaran İrana qarşı genişmiqyaslı İsrail əməliyyatının kökündə bu məsələ dayanırdı. Üstəlik, Amerika lideri İran rəhbərliyinin nüvə sənayesinin imkanlarını "başqa yerdə" bərpa edə biləcəyini istisna etməyib ki, onun ən azı üç nüvə obyekti Amerikanın bombardmanları nəticəsində ciddi zədələnib. "Əgər onlar işə başlasalar, bu problem olacaq", - deyə Tramp əlavə edib. O, son iki həftə ərzində ABŞ-ın lazım bildiyi təqdirdə yenidən İrana qarşı güc tətbiq edə biləcəyini dəfələrlə qeyd edib.




Bölgədə qüvvələr balansını dəyişdirən Qəzza zolağında 21 aydır davam edən müharibə də bitmək üzrə deyil. İsrailin ABŞ-a atəşkəslə bağlı fundamental razılaşmasını verməsinə baxmayaraq, sazişin parametrləri mübahisəli olaraq qalır. Beləliklə, son sülh təklifinə cavab olaraq radikal Həmas qrupu üç əsas şərt irəli sürür. Bunlara BMT-nin himayəsi altında humanitar yardımın paylanmasının əvvəlki sisteminə qayıtması, danışıqların nəticəsiz qalacağı təqdirdə Benyamin Netanyahu hökumətinin hərbi əməliyyatları bərpa etməyəcəyinə dair aydın təminatların verilməsi və İsrail hərbi birləşmələrinin Qəzzadan tamamilə çıxarılması daxildir.

İsrail rəhbərliyi bu cür tələbləri qəbuledilməz adlandırıb. Lazım gələrsə, istənilən vaxt güc tətbiq etmək hüququnu özündə saxlamaq istərdi. Məsələn, İsrail Livanda atəşkəs razılaşmasından sonra bu variantı saxladı: İsrail təyyarələri hələ də Hizbullaha situasiya zərbələri endirir. Öz növbəsində Qəzzada əməliyyat başlayandan bəri HƏMAS ilə fəal həmrəylik nümayiş etdirən Yəmənin Ənsar Allah (Husi) qruplaşması qlobal gəmiçiliyi təhdid etməkdə davam edir. Həftə sonu husilər Liberiya bayrağı altında üzən Qırmızı dənizdə Yunanıstanın Magic Seas yük daşıyıcısına hücum etməyi bacarıb. Ona atıcı silahlardan və qumbaraatanlardan atəş açılıb. Ayrı-ayrılıqda Sehrli dənizlərə qarşı dörd yerüstü pilotsuz uçuş aparatı buraxılıb. Bu, husilərin mülki gəmiyə hücum etdiyi keçən ilin dekabrından bəri ilk epizoddur.



Göründüyü kimi, ABŞ və İsrailin təşəbbüsü ilə Ənsarullahın mövqelərinə endirilən intensiv zərbələr heç bir nəticə vermədi. Yəmən qruplaşması təkcə döyüş potensialını deyil, həm də hərbi təhlükəni proqnozlaşdırmaq qabiliyyətini qoruyub saxlayıb. Bununla bağlı ABŞ-ın İsraildəki səfiri Mayk Hakabi bir həftə əvvəl Tramp administrasiyasının iyunun 22-nə keçən gecə İrana zərbələr endirərkən husilərə qarşı istifadə etdiyi B-2 strateji bombardmançı təyyarələrdən istifadə etməyi təklif edib.

İrana qarşı 12 günlük müharibənin başa çatmasının Yaxın Şərqdə gərginliyi azaldacağı və ola bilsin ki, Ukrayna münaqişəsini dünya gündəminin mərkəzinə qaytaracağına dair gözləntilər tez idi. Bölgənin köklü problemləri həllini tapmayıb. İsrail öz mövcud düşmənlərinə qarşı barışmaz güc tətbiq etməyə hazır olaraq qalır və onlar öz mövqelərində heç bir dəyişiklik göstərmirlər. Financial Times-ın mənbələrinə görə, bununla bağlı bəzi Körfəz ölkələri İsrailə yanaşmalarını yenidən nəzərdən keçirib və onu İranın özündən daha təhlükəli və sabitliyi pozan qüvvə hesab etməyə başlayıblar. Bölgədəki qarşılıqlı inamsızlıq isə yalnız münaqişələrin yenilənməsi üçün atmosferi gücləndirir.

***V.SALAH***

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC-nin maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır :

- "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC-nin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun oalaraq düzgün hazırlanması və "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC-nin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək "AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC-nin aktivlərinin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

**İdarə Heyətinin sədri** **Maliyyə Departamentinin rəhbəri** **Baş Mühasib**

---

### "AZƏRŞƏKƏR" MMC

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT (konsolidə edilmiş)**
"AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| ***Cari aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalrentləri | | 23 263 784,03 | 16 899 971,60 |
| Qısamüddətli debitor borcları | | 5 486 038,96 | 3 238 214,93 |
| Ehtiyatlar | | 8 785 223,78 | 17 409 547,35 |
| Sair aktivləri | | 22 511 807,81 | 12 283 641,38 |
| **Cəmi cari aktivlər** | | **60 046 854,58** | **49 831 375,26** |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq, tikili və avadanlıq | | **59 753 171,90** | **32 316 012,07** |
| Qeyri maddi aktivlər | | 31 049,75 | 35 610,16 |
| İnvestisiyalar | | 7 600 000,00 | 2 160 000,00 |
| Uzunmüddətli debitor borcları | | 10 835 381,49 | 4 233 116,56 |
| Sair uzunmüddətli maliyyə aktivləri | | 27 402 070,53 | 21 963 043,43 |
| Cəmi uzunmüddətli aktivlər | | **105 621 673,67** | **60 707 782,22** |
| **Cəmi aktivlər** | | **165 668 528,25** | **110 539 157,48** |
| ***Öhdəliklər və kapital*** | | | |
| ***Cari öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | 0,00 | 28 374,15 |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Vergi və sairə məcbiri ödənişlər üzrə öhdəliklər | | 51 103,62 | 37 017,32 |
| Qısamüddətli kreditor borcları | | 4 310 906,31 | 4 213 901,74 |
| Sair qısamüddətli öhdəliklər | | 13 770,90 | 7 940,75 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **4 375 780,83** | **4 287 233,96** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Uzunmüddətli kreditor borcları | | 19 245 000,00 | |
| Sair uzunmüddətli öhdəliklər | | 553 100,81 | 864 081,52 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **19 798 100,81** | **864 081,52** |
| ***Xalis aktivlər və kapital*** | | | |
| Nizamnamə kapitalı | | 139 772 842,00 | 105 387 842,00 |
| Əlavə kapital | | | |
| Ehtiyyat kapitalı | | | |
| Yığım fondu | | | |
| İstehlak fondu | | | |
| Sosial sfera fondu | | | |
| Emissiya gəliri | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 1 721 804,61 | 0,00 |
| Məqsədli maliyyələşmələr və daxilolmalar | | | |
| **Cəmi xalis aktivlər və kapital** | | **141 494 646,61** | **105 387 842,00** |
| **Cəmi öhdəliklər və kapital** | | **165 668 528,25** | **110 539 157,48** |

İdarə Heyətinin sədri

Maliyyə Departamentinin rəhbəri

Baş Mühasib

---

**BKR İŞIK** CONSULTING

AZ1073, Bakı şəh., M.Müşfiq, 15/17
Tel./Faks: (+99412) 510-83-45
E-mail: baku_office@bkrisik.com
www.bkrisik.com, www.bkr.com

*An independent member of* **BKR International**

### MÜSTƏQİL AUDİTOR HESABATI

"AZƏRŞƏKƏR" MMC

RƏY

"AZƏRŞƏKƏR" MMC (bundan sonra cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandlrmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və idarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir

**İdarəedici Partnyor**
**E. Əliyev**

Bakı şəhəri, Azərbaycan Respublikası

30.06.2025

---

### "AZƏRŞƏKƏR" MMC

**Məcmu mənfəət və zərər haqqında hesabat (konsolidə edilmiş)**
"AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Əsas əməliyyat gəlirləri | | 13 087 829,90 | 10 872 042,60 |
| Faiz gəlirləri, royalti və dividendlər | | 322 122,19 | 67 315,07 |
| İcarədən gəlir | | 115 811,04 | 0,00 |
| Sair əməliyyat gəlirləri | | 8 149 896,88 | 2 400 074,75 |
| Xarici valyutanın manata nisbətən müsbət məzənnə fərqi | | 0,00 | 28 910,79 |
| Xarici valyutanın manata nisbətən mənfi məzənnə fərqi | | -58 243,30 | -46 045,18 |
| **Cəmi əməliyyat gəlirləri** | | **21 617 416,71** | **13 322 298,03** |
| Gəlirlər üzrə azad olmalar | | -21 617 416,71 | -12 920 774,10 |
| **Çıxılmalardan sonra ümumi gəlir** | | **0,00** | **401 523,93** |
| **Xərclər** | | | |
| Material xərcləri | | 1 797 231,59 | 9 372 332,72 |
| Kommersiya xərcləri | | 0,00 | 0,00 |
| Əmək haqqı xərcləri və sosial ayirmalar | | 5 114 846,30 | 5 175 128,89 |
| Amortizasiya ayırmaları | | 8 914 156,23 | 4 855 153,35 |
| Maliyyə xərcləri | | 0,00 | 0,00 |
| Sair əməliyyat xərcləri | | 17 288 626,64 | 4 025 694,58 |
| **Cəmi əməliyyat xərcləri** | | **33 114 860,76** | **23 428 309,54** |
| Vergidən azad olunan fəaliyyətlə bağlı olan xərclərin cəmi | | -33 114 860,76 | -22 988 679,26 |
| **Vergiyə cəlb olunan fəaliyyətlə bağlı xərclərin cəmi** | | **0,00** | **439 630,28** |
| Əməliyyat mənfəəti (zərərlər) | | 0,00 | -38 106,35 |
| Ümumi mənfəət (zərər) | | 0,00 | -38 106,35 |
| Mənfəət vergisi | | 0,00 | |
| | | | -38 106,35 |
| **Hesabat dövrünün sonuna maliyyə nəticələri** | | **0,00** | -38 106,35 |

İdarə Heyətinin sədri

Maliyyə Departamentinin rəhbəri

Baş Mühasib

Ardı Səh. 13

Əvvəli Səh. 12

"AZƏRŞƏKƏR" MMC

**Kapitalda dəyişikliklər hesabatı (konsolidə edilmiş)**

"AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC

31 dekabr 2024-cü il tarixə

AZN

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Emissiya gəlirləri | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə qalıq** | **105 387 842,00** | **0,00** | **0,00** | **105 387 842,00** |
| Daxil olub | 34 385 000,00 | 1 997 564,80 | 0,00 | **36 382 564,80** |
| İstifadə olunub | 0,00 | 275 760,19 | 0,00 | **275 760,19** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **139 772 842,00** | **1 721 804,61** | **0,00** | **141 494 646,61** |

İdarə Heyətinin sədri

Maliyyə Departamentinin rəhbəri

Baş Mühasib

M.Y. Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət Azərşəkər Limited Liability Company Azerbaijan Republic

"AZƏRŞƏKƏR" MMC

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (konsolidə edilmiş)**

"AZƏRŞƏKƏR" MMC, "DASTAN AGRO" MMC, "EDEN AGRO" MMC

31 dekabr 2024-cü il tarixə

AZN

| | 2024 | 2023 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Müştərilərdən daxilolmalar | 19 212 251,57 | 15 519 024,05 |
| Kreditlər üzrə daxilolmalar | 0,00 | 0,00 |
| Mal və xidmətlərə görə təchizatçılara ödənişlər | -35 927 777,54 | -35 464 990,49 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | -4 433 875,41 | -3 671 156,25 |
| Vergi ödənişləri | -1 600 030,77 | -1 780 091,48 |
| Digər əməliyyat fəaliyyətilə bağlı pul vəsaitləri ödənişləri | -73 415,62 | -90 851,98 |
| **Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması)** | **-22 822 847,77** | **1 268 252,88** |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Əsas vəsaitlərin və Q/maddi aktivlərin satılmasından daxil olan pul mədaxili | 0,00 | 0,00 |
| Digər təsərrüfat subyektlərinin satılmasından daxil olan pul vəsaitləri | 0,00 | 0,00 |
| Kreditlərin qaytarılmasından yaranan pul vəsaitlərinin mədaxili | 0,00 | 0,00 |
| Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | 0,00 | 0,00 |
| Digər təsərrüfat subyektlərinə qoyulan pul vəsaitləri | -5 440 000,00 | -2 160 000,00 |
| Faiz daxilolmaları | 270 034,35 | 67 315,07 |
| **Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **-5 169 965,65** | **-2 092 684,93** |
| ***Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar | 34 385 000,00 | 41 507 842,00 |
| Qiymətli kağızların buraxılışından daxilolmalar | 0,00 | 0,00 |
| Kreditlərin qaytarılmasından yaranan pul vəsaitlərinin məxarici | -28 374,15 | -65 062,20 |
| Borc şəklində alınmış vəsaitlərə görə geri qaytarmalardan məxaric | 0,00 | -3 740 713,78 |
| **Cəmi maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **34 356 625,85** | **37 702 066,02** |
| **Cəmi mədaxil olunan pul** | **53 867 285,92** | **57 094 181,12** |
| **Cəmi məxaric olunan pul** | **-47 503 473,49** | **-46 972 866,18** |
| **Dövrün əvvəlinə olan qalıq** | **16 899 971,60** | **6 778 656,66** |
| **Dövrün sonuna qalıq** | **23 263 784,03** | **16 899 971,60** |
| **Pul vəsaitlərinin artması (azalması)** | **6 363 812,43** | **10 121 314,94** |

İdarə Heyətinin sədri

Maliyyə Departamentinin rəhbəri

Baş Mühasib

M.Y. Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət Azərşəkər Limited Liability Company Azerbaijan Republic




# BRİKS-dən Trampla bağlı qərar

*REAKSİYA*

***Rio-de-Janeyro sammitinin iştirakçıları yekun sənədi təsdiq etməzdən əvvəl BRİKS-in anti-Amerika siyasətini rəhbər tutan ölkələrə əlavə 10 faizlik gömrük rüsumunu tətbiq edəcəyini bildirən ABŞ prezidenti Donald Trampın təhdidinə necə cavab verəcəkləri barədə qərar verməli olublar. Bu ifadənin necə şərh olunacağını, anti-Amerika siyasətinin nəyi nəzərdə tutduğunu Ağ Ev rəhbəri izah etməyib.***

Lakin toplantıya ev sahibliyi edən Braziliya və BRİKS ölkələrinin digər nümayəndə heyətlərinin rəhbərləri ABŞ-la qarşıdurmaya getməməyə üstünlük verdilər. Buna görə də bəyannamədə yalnız Qərbin yüksək tariflərinin inkişaf etməkdə olan ölkələr üçün zərərindən danışılır. Eyni zamanda, sənəddə Moskva üçün müsbət olan məqamlar var. BRICS Rusiya Federasiyasının Bryansk və digər bölgələrində mülki hədəflərə endirilən zərbələri pisləyib.Bəyannamədə foruma ev sahibliyi edən Braziliyanın Vaşinqtonla münasibətləri gərginləşdirməyə açıq-aşkar istəksizliyi öz əksini tapıb. Ona görə də sənəddə Rusiyadakı hədəfləri kimin vurduğu qeyd olunmur. Ukrayna böhranına gəlincə, onun sülh yolu ilə həll olunması ilə bağlı qeyri-müəyyən təklif irəli sürülüb. Sammit İsrailin İrana hücumları və Qəzza zolağına endirdiyi zərbələrlə bağlı özünü bir qədər aydın ifadə etdi. Bəyannamədə İranın nüvə obyektlərinə edilən hücumlar pislənilir və bunun beynəlxalq hüququn pozulması olduğu vurğulanır. Qəzza zolağında baş verən faciə ilə bağlı sənəddə tərəflər dərhal atəşkəs barədə razılığa gəlməyə çağırılıb. Bu tezis o demək deyil ki, BRİKS həm fələstinlilərdən, həm də İsraildən eyni məsafədə mövqe tutmuşdur. Burada BRİKS açıq şəkildə fələstinlilərin tərəfini tutub. O, Fələstin Milli Administrasiyasının hakimiyyəti altında Fələstin dövlətinin yaradılmasını tələb edirdi.

Bəyannamədə deyilir ki, bu dövlət İordan çayının qərb sahili və Qəzza zolağına daxil olmalıdır.AP agentliyi həmçinin öz şərhində vurğulayır ki, inkişaf etməkdə olan ölkələr assosiasiyası tariflərin artırılmasını və İrana qarşı hücumları pisləyib, lakin bu hərəkətlərin günahkarının adını çəkməkdən çəkinib. Və Putin, AP-nin məlumatına görə, yurisdiksiyasını Rusiya, Çin və ya ABŞ tərəfindən tanınmayan Haaqa Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya liderinin həbsinə order verməsi səbəbindən xaricə səfərlərdən yayınır.Tariflərə gəlincə, BRİKS ABŞ-ın adını çəkmədən onları bir qədər tənqid edərək, tariflərin artırılmasının Ümumdünya Ticarət Təşkilatının (ÜTT) qaydalarını pozmaq anlamına gəldiyinə işarə edib. Bəyannamədə bununla bağlı qeyd edilir ki, məhdudiyyətlər dünya ticarətinin miqyasını azaltmaq, qlobal təchizat zəncirlərini pozmaq və dünya ticarətində daha böyük qeyri-müəyyənlik yaratmaq təhlükəsi yaradır.Braziliya prezidenti Luiz İnasio Lula da Silva NATO-nun 2035-ci ilə qədər hərbi xərcləri ÜDM-in 5%-ə çatdırmaq qərarını tənqid edib: "Müharibəyə sərmayə qoymaq həmişə sülhdən daha asandır" deyə ironik şəkildə bildirib. Bu mövqe bəyannamədə öz əksini tapıb.Təbii ki, İsrail və Amerikanın İranı bombalamasından sonra medianın diqqəti bu ölkəni BRİKS sammitində kimin təmsil edəcəyinə yönəlmişdi. İran prezidenti Məsud Pezeşkiyanın iştirakı gözlənilirdi. Amma xarici işlər naziri Abbas Əraqçini göndərdi. O, çıxışında BMT-dən İsraili şiddətlə qınamağa çağırdığını söyləyərək, İsrail və ABŞ-ın beynəlxalq hüququ pozduğuna görə cavab verməli olduğunu bildirib. O, Yaxın Şərqdəki qonşularına da xəbərdarlıq edib.

Bu keçid İranın hakim dini liderlərinin sionist dövlət olan İsrailin mövcudluğuna son qoymalı olduğunu söyləyən əmrinə istinad kimi qiymətləndirilə bilər. İsrail və ABŞ arasında Tehrana qarşı 12 günlük müharibənin göstərdiyi kimi, bu cür bəyanatlar İran xalqı üçün yaxşı heç nə vəd etmir.Braziliyanın Katolik Universitetinin professoru Alfredo Neqre deyib: "Sammit qeyri-sabit dünyaya alternativ göstərə bilərdi. Amma bu baş vermədi. Misir prezidentinin iclasda iştirak etməməsi, Səudiyyə Ərəbistanı, BƏƏ, İran kimi ölkələrin təmsilçiliyi ilə bağlı qeyri-müəyyənlik göstərdi ki, BRICS qlobal liderlik qütblərindən biri olmaq mövqeyində deyil". Bununla belə, assosiasiyanın təsisçi ölkələrindən biri olan Hindistan sammitin nəticələrinə müsbət baxa bilər. Hindistanı ikinci dərəcəli siyasətçi deyil, hökumət başçısı Narendra Modi təmsil edib. 2026-cı ildə Hindistan BRİKS sammitinə ev sahibliyi edəcək.

**V.VƏLİYEV**

# Attestat vacibdir, yoxsa buraxılış balı?

Orta təhsil haqqında rəsmi sənəd olan attestat kollec, peşə məktəbi, universitetə qəbul və xaricdə təhsil üçün əhəmiyyətlidir. Attestatda fənlər üzrə qiymətlər, təhsil səviyyəsi, məzuniyyət ili və s. məlumatlar əks olunur. Azərbaycanda bu sənəd ümumtəhsil məktəblərinin 9-cu sinfini və ya 11-ci sinfini bitirən şagirdlərə verilir. Attestat vətəndaşın orta təhsil səviyyəsini bitirdiyini təsdiq edən rəsmi dövlət sənədidir. Bir müddətdir ki, ölkəmizdə orta məktəb məzunlarının atestatı ilə bağlı bəzi narazılıqlar dilə gətirilir, sosial şəbəkədə bununla bağlı etiraz paylaşımları yayımlanır. Valideynlər övladlarının atestat qiymətlərinin kəsildiyini, buraxılış balının yüksək olmasına rəğmən atestat qiymətlərinin qənaətbəxş olmadığını iddia edirlər. Həmçnin buraxılış imtahanından zəif bal toplayan şagirdlərin atestat qiymətlərinin də qəsdən aşağı yazıldığını iddia edən valideynlər var. Buraxılış imtahanından 250-dən çox bal toplayan məzunların atestat qiymətlərində 3,4 olması ilə bağlı narahatlıqlar barədə ekspertlər də öz fikirlərini paylaşır.

Təhsil eksperti Ramin Rurəliyev bununla bağlı öz facebook səhifəsində yazır: "Hazırda ümumtəhsil məktəblərində buraxılış sinfində oxuyan şagirdlərə attestatlar təqdim olunur. Sosial platformalarda valideynlərin attestata yazılan illik qiymətləndirmənin düzgün aparılmaması səsləndirilir. Valideyn narazılıq edir ki, uşaq buraxılış imtahanlarında zəif nəticə göstərdiyi üçün məktəb rəhbərliyi şagirdin qiymətlərini aşağı yazır. Halbuki uşaq tədris ili boyunca heç 2 qiyməti almayıb. Sadəcə buraxılış imtahanında aşağı nəticə göstərib. Buna görə də, buraxılış imtahanı nəticəsinin bir başa attestata yazılacağı bildirilir.













Buraxılış imtahanı məktəbin ümumi qiymətləndirməsi deyil. Heç bir şagirdə buraxılış imtahanı nəticəsinin yekun qiyməti bütün tədris ili boyunca fəaliyyəti diqqətə alınmadan birbaşa yazıla bilməz. Yəni şagird il boyunca hər hansı bir fəndən, bu fənlərə buraxılış imtahanı fənləri də daxildir, 3, 4, 5 qiyməti alıbsa, sadəcə müəyyən səbəbdən buraxılış imtahanı nəticəsi 2 olsa belə, həmin şagirdin ümumi illik qiyməti 2 ola bilməz. Bu şagirdə ümumi illik qiyməti 2 yazılıbsa, tamamilə təhsil haqqında qanunazid addım atılmışdır, deməkdir. Çünki şagirdin ümumtəhsil məktəblərində illik qiymətləri təhsil haqqında qanuna əsasən bütün tədris ilini əhatə etməlidir. Buraxılış imtahanı yekun qiymətləndirməni əks etdirmir. Şagirdin illik qiymətləndirməsi təhsil haqqında qanuna, nazirlər kabinetinin qərarına, eləcə də, Elm və Təhsil Nazirliyinin göstəriş və qaydalarına əsasən formalaşdırılmalıdır. Buraxılış imtahanı Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi ali təhsil müəssisələrinə, orta ixtisas təhsili müəssisələrinə qəbul müsabiqəsinin bir hissəsidir.

Buraxılış imtahanı illik qiymətləndirilməyə təsir etməməlidir. Qanunda bununla bağlı hər hansı bir təlimat yoxdur. Şagirdə verilən attestatda buraxılış imtahanının nəticəsi birbaşa yazıla bilməz. Əgər şagird peşə təhsil müəsisələrinə müraciət edəcəksə, buraxılış imtahanı onun üçün hər hansı bir qiymətləndirmə meyarı deyil. Peşə təhsili müəssisələrinə qəbul DİM-in qəbul imtahanları ilə aparılmır, attestat qiymət ortalaması əsasında aparılır. Yəni buraxılış imtahanı peşə təhsilinə qəbulda heç bir rol oynamır. Məktəb rəhbərliyi şagirdlərin qiymətləndirilməsini həyata keçirdiyi zaman onun tədris ili boyunca dərslərə davamiyyətini, hazırcavablığını, tapşırıqlara fəallığını, bilik və bacarığını, sosial fəaliyyətini də nəzərə almalıdır.

Bəs buraxılış imtahanı nəticəsi və illik qiymətləndirmə aşağı olarsa, şagirdə attestat verilirmi? Tez-tez bu sual ünvanlanır. Əgər bir şagirdin riyaziyyat fənni onun biliyinə əsasən qiymətləndirilirsə, fiziki tərbiyə fənni fiziki qabiliyyətinə, çağırışa qədərki hazırlıq fənni bacarığına, rəsm fənni xüsusi istedadına və qabiliyyətinə görə qiymətləndirilir. Bununla yanaşı, buraxılış imtahanında 3 fənn üzrə imtahan təşkil olunur, amma şagirdin attestatına 15-ə yaxın fənn üzrə qiymət yazılır.

Təhsil haqqında qanunda qiymətləndirmə meyarlarına əsasən şagirdlərin məktəbdən kənarlaşdırılması bu halda nəzərdə tutulur. Əgər şagird 4 fəndən 2 qiyməti alarsa, o zaman məktəb pedaqoji şuranın qərarı ilə sinifdə saxlanıla bilər. Bu da o deməkdir ki, şagird hər hansı bir fəndən 2 qiyməti alsa belə, həmçinin attestatına 2 yazılsa belə, buna görə məktəbdən xaric oluna bilməz, yaxud da növbəti sinfə keçməsinə və yaxud da, attestat almasına məhdudiyyət tətbiq edilə bilməz."

Ekspert bildirir ki, şagirdin ümumi bilik və bacarığı, dərsə davamiyyəti, nizam-intizamı qaydasında deyilsə, bu zaman məktəb pedaqoji şurası tərəfindən müvafiq qərar verilərək haqqında tənbeh tətbiq edilə bilər: "Yəni məktəb rəhbərliyi özbaşına deyil, pedaqoji şuranın qərarına görə addım atmalıdır. Təəssüflər olsun ki, bəzi məktəb direktorları valideynlərin məlumatsızlığından istifadə edərək şagirdlərin qiymətlərinin aşağı olmasını əsas gətirir və bu istiqamətdə müxtəlif təzyiqlər göstərir. Bildirmək istəyirəm ki, bu kimi təzyiqlər tamamən qanunsuzdur".

***Lalə Mehralı***



## FELYETON

# AŞURA: bir vaxt baş yaranlar indi baş sındırır

***Ya bizə çatmır, ya köhnə adətlərimizdən deyim, xasiyyətlərimizdən deyim, əl çəkə bilmirik, ya qulağımız kardır, ya barmaqhesabını bilmirik, ya nədəndir, nəyə görədir, bilmirəm, həmişə yarımız Ramazana bir gün, yarımız digər gün başlayırıq. Ramazan bayramını da baxırsan ki, yarımız bu gün, yarımız sabahı gün qeyd edirik. Elə Qurbanda da yarımız bu gün, yarımız səhəri gün bazardan qurban adına ət alıb qazana qoyuruq, bayramdır,- deyib süfrə açırıq.***

Vallah, ta Aşuranın da iki gün keçiriləcəyi heç ağıla gələn məsələ deyil. Axı bu Aşura günü məhərrəmlik ayının 10-u deməkdir də. Bu 10-cu günü necə 9-a çəkmək və ya 11-ə dartmaq olar?

Ayın 5-i axşamçağı getdim küçəmizdəki mağazalardan bir az alış-veriş etməyə. Axı Aşura günü hər yer saat 12-13-dək bağlı olur. Satıcılardan biri dedi ki, ay bacı, nə alırsınız alın, sabah işləməyəcəyik. Dedim nə üçün işləməyəcəksiniz? Dedi ki, bəs sabah Aşuradır. Dedim, ay qardaş, Aşura bu gün idi, siz səhv bilirsiniz. Dedi ki, yox, ay bacı, bu gün rəsmi şəkildədir, sabah camaat saxlayacaq. Vallah tarixi-nadiri başa çatdırmışam, hələ belə cavab görməmişdim. Aşuranın da rəsmisi, sərbəsti olur məgər?

Oradan yol aldım kiçik bir şirniyyat mağazası var, oraya. Burada da satıcılar sabah, yəni iyulun 6-da işləməyəcəklərini dedilər. Soruşdum, nə üçün? Dedilər ki, bəs sabah Aşura günüdür, mağaza bağlı olacaq. Bunlara da dedim ki, ay qardaş, ay bacılar, axı Aşura günü bu gün idi. Sizin niyə bundan xəbəriniz yoxdur? Dedilər ki, yox, biz sabah olaraq bilirik.

Ta nə deyim, nə deyə bilərəm ki? Adamlar belə dərk edir də. Məni düşündürən o oldu ki, bunlar hansı barmaqhesabı gediblər, məhərrəmlik ayının nə vaxtdan başladığını zənn ediblər ki, bu ayın 10-cu gününün nə vaxt tamam olduğunu bilmirlər?

Evədək fikirləşə-fikirləşə getdim. Fikir də məni bir neçə onillik əvvələ apardı. Aşura günündə camaatın zəncirlə özünü alqana qərq etməsini, başlarını yarmalarını, qan axıtdıqlarını xatırladım. Dedim, özümüz XXI əsrə gəlib çıxsaq da, yoxsa düşüncələrimiz hələ də XX əsrdə qalıb. Yox, axı sonradan anladıq ki, qanımızı yerı axıtmaq əvəzinə gedib qan verib donor olaq, kiminsə həyatını qurtaraq. Zəncirlə özümüzü döyməyin isə mənasız olduğunu dərk etdiyimizdən gör bir neçə illər keçib.

Bəs belə isə iki gün Aşura məsələsi nə deməkdir. Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına görə elan edildi ki, hicri-qəməri təqvimi ilə 1446-cı il başa çatdı, 1447-ci ilin başlanğıcı-Məhərrəm ayının 1-i miladi təqvimlə 2025-ci il iyunun 26-na təsadüf edir. Məhərrəm ayının 10-cu günü, yəni Aşura günü isə iyulun 5-nə təsadüf edir.

Bunu ölkədə o mətbuat orqanı qalmadı ki, deməsin, yazmasın, o sosial şəbəkə qalmadı ki paylaşmasın. Belə isə, yəqin hələ də aramızda özündən, öz barmaq hesabından savayı başqa birinə inanmayan insanlar var.

Elə bu arada "Molla Nəsrəddin"dən bir Aşura günü də yadıma düşdü:

- Balam, Kəbla Kazım! Hara belə tələsik gedirsən?
- Deyirlər Hacı Qasımın oğlu Aşura günü başını yarıb, can üstədir, gedirəm ora.

Hə, axır anladım ki, o zaman Aşurada baş yarılırdı, indi də baş sındırılır: Aşura bu gün deyil, sabahdır və ya sabah deyil bu gündür

***Mətanət Məmmədova***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

**ELMİN SONU**

(XXX YAZI)

*Seriyamızın bundan əvvəlki hissələrindən başlayaraq insan orqanizmində insanın necə yaranması haqda maraqlı faktları təqdim edirik. Ötən hissədə embrionun ana bətnində formalaşması zamanı ən vacib orqanların necə əmələ gəldiyindən danışmışdıq. Bu yazıda isə dünyaya gəlişin son hazırlıqlarından danışacağıq.*





**İnsan orqanizmindən insan necə yaranır? 5-ci hissə**



Döl tədricən xarici dünyaya hazır olduqdan sonra orqanlar arasında qeyri-adi iş bölgüsü aparılır. Görüləcək işlər və inkişaf prosesi dünya şərtlərinə uyğun olaraq müəyyən edilir. Ana bətnində istifadə olunmayan gözlər dünyadakı işıq səviyyəsinə, qulaqlar isə dünyadakı səslərin xüsusiyyətlərinə görə formalaşdırılır.

Eynilə, mədə və digər həzm orqanları dünyadakı qidalarla uyğunlaşa bilən fizioloji sistemlə təchiz edilmişdir. Həzm sistemində işləyən hüceyrələr heç vaxt bilmədikləri qidaları analiz etmək üçün proqramlaşdırılmışdır. Karbohidratları, zülalları və yağları təhlil etmək qabiliyyətinə əlavə olaraq, hansının hansı orqanlar üçün lazım olduğunu bilən və bu qidaların bədənin digər hüceyrələrinə göndərilməsini təmin edən bir proqrama sahibdirlər. Bu baxımdan döl planlı və proqramlı şəkildə xarici dünyaya hazırlanır.

Bir sözlə, yeni bir insanın bədənini təşkil edən bu orqan və hüceyrələr heç vaxt görmədikləri, eşitmədikləri, şahid olmadıqları bir mühitə hazırlaşırlar. Onlar elə inkişaf edirlər ki, ananın bədənindən ayrıldıqdan sonra onları hansı mühitin gözlədiyini bilirlər. Təbii ki, hüceyrələrin öz ”uzaqgörənliyi” ilə buna nail olduğunu iddia etmək mümkün deyil. Körpəni meydana gətirən hüceyrələrin bu hazırlıqları Yaradanın proqramı əsasında həyata keçirdiyi aşkardır.

Hamiləliyin son aylarında döl əhəmiyyətli dərəcədə çəkisini artırmağa başlayır. Bunun səbəbi yağ toxumasının əmələ gəlməsidir. Xüsusi qəhvəyi quruluşa malik olan bu yağ təbəqəsini əmələ gətirən hüceyrələr, bu təbəqənin xüsusilə dölün boyun nahiyəsi, böyrəklər ətrafında və döş qəfəsi arxasında müəyyən nahiyələrində əmələ gəlməsini təmin edir. Bu xüsusi yağ təbəqələrinin funksiyası körpənin doğulduqdan sonra ilk aylarda bədən istiliyini yüksək saxlamaqdır. Bundan əlavə, bu yağlar ehtiyat qida kimi xidmət edir. Bu, bu yağ təbəqələrini əmələ gətirən hüceyrələrin onlara tapşırılan vəzifələri qüsursuz yerinə yetirdiyinin başqa bir sübutudur.

Bu proses zamanı ağ yağlar da nazik təbəqə halında əmələ gəlməyə başlayır. Beləliklə, piy qat olaraq dölün dərisinin alt hissəsini əhatə edir. Dərialtı piy təbəqələri ilə yanaşı dərini içindəki mayedən qoruyan başqa bir piy də dəri hüceyrələri tərəfindən istehsal olunur. Bu yağların əmələ gəlməsi də son dərəcə vacibdir, çünki dəri ilə su arasına bir yağ təbəqəsi daxil olacaq və suyun döl üzərindəki mənfi təsirlərini aradan qaldıracaq.

Əvvəlki bölmələrdə ananın qanında olan immun sistemi elementlərinin körpənin qanına keçməsinə icazə verilmədiyi qeyd olunmuşdu. Çünki bu elementlər körpəni yad toxuma kimi görüb onu məhv edə bilərdi. Ancaq 9-cu aya çatdıqda bu vəziyyət birdən dəyişir və ananın qanındakı müdafiə hüceyrələri olan antikorlar plasenta vasitəsilə dölə keçir. Bunun səbəbi araşdırılanda çox təəccüblü bir faktla rastlaşırıq. Körpənin immun hüceyrələri doğulduqdan sonra ilk 6 ay ərzində formalaşmayacaq. Bununla belə, körpənin özünü dünyada mikroblardan qoruyacaq antikorlara ehtiyacı olacaq. Son 1 ayda ananın dölün qanına keçməsinə icazə verilən anticisimləri körpə dünyaya ilk gələndə onun yoluxucu xəstəliklərə tutulmasının qarşısını almaq üçün hazır olacaq. Sonrakı aylarda körpənin immun sistemi öz antikorlarını formalaşdırmağa başlayanda bu antikorlar öz funksiyalarını dayandıracaq...

Burada qısaca xülasə etdiyimiz bu hadisə, əvvəl danışdığımız çoxsaylı proseslər kimi, insanın yaradılışındakı qüsursuz planlaşdırma nümunələrindən biridir. İnsanın formalaşması üçün hər ay, hər gün, hər dəqiqə baş verməsi lazım olan proseslər və burada roy oynayacaq ən xırda detallar belə çox diqqətlə hesablanıb. Mükəmməl sistemlərlə dölə zərər verəcək maddələrin keçməsi qarşısı alınır, lakin bu maddələrə ehtiyac duyulan zaman gəldiyində köhnə sistem eyni mükəmməlliklə aradan qaldırılır və yerinə tamamilə yeni bir sistem qoyulur. Təbii ki, bu kamilliklər insanı təşkil edən hüceyrələrin iradəsi və qərarları ilə meydana gəlməmişdir. Bu, Yaradan tərəfindən yazılmış mükəmməl və möhtəşəm yaradılış proqramıdır.

Verilən nümunələrdən də göründüyü kimi, dölün inkişafındakı hər mərhələ nəzarət altında və çox mərhələli, qüsursuz bir plana uyğun olaraq baş verir. Üstəlik, hər bir insan hələ döl ikən bu nəzarətdən keçərək inkişaf etmiş və indiki vəziyyətinə gəlmişdir.

Ana bətnindəki böyümə prosesi 9 ay boyunca qüsursuz şəkildə davam edir. Buraya əvvəlcə tək damcı su kimi daxil olan döl getdikcə tam bir insana çevrilir.

Bu transformasiyada ən kiçik bir uyğunsuzluq baş verərsə, dölün ölməsi qaçılmaz olacaq. Məsələn, beyin kəllə sümüklərindən daha sürətli böyüyərsə, dölün beyni sıxılacaq və zədələnəcəkdir. Eyni şey sümük toxuması harmoniyasına, gözlərə, ağciyərlərə, ürəklərə və bir çox digər orqanlara və onları əhatə edən sümüklərə aiddir. Orqanların ahəngdar inkişafı da çox vacibdir.

Böyrəklər qan dövranı sistemini gec formalaşdırsa, qan təmizlənməyəcək və orqanizm zəhərlənəcək.

Ancaq bunların heç biri baş vermir və dünyaya göz açacaq gənc bir mərhələdən digərinə qüsursuz keçərək yaradılır.

Quranda insanın yaradılışı belə təsvir edilir:

”İnsan özbaşına və məsuliyyətsiz buraxılacağınımı düşünür? O, axıdılan spermadan ibarət bir damla su deyildimi? Sonra bir rüşeym oldu, sonra Allah onu mərhələli şəkildə bir nizam-intizamla formalaşdırdı. Beləliklə, ondan kişi və qadın olaraq bir cüt yaratdı. Məgər Allah ölüləri diriltməyə qadir deyilmi?” (Qiyamət surəsi, 36-40)

”Sizi yaradan, sizə qulaq, göz və ürək verən Odur. Siz nə az şükür edirsiniz?” (Mülk surəsi, 23)

Dölün yeni bir dünyaya girməsi üçün bütün hazırlıqlar tamamlandıqda, amniotik maye də doğum üçün hazırlığa başlayır. Uşaqlıq boynunu genişləndirəcək su kisələri əmələ gətirən amniotik maye, beləliklə uşaqlığı körpənin keçəcəyi ölçüyə qədər böyüdür. Bu kisələr həm də doğuş zamanı dölün uşaqlıq yolunda ilişib qalmasının qarşısını alacaq. Bundan əlavə, doğuşun başlanğıcında kisələr yırtıldıqda və içindəki mayelər axdıqda, dölün keçəcəyi yol həm sürüşkən olur, həm də sterilizasiya edilir. Beləliklə, doğum həm daha rahat, həm də təbii olaraq mikroblardan azad olur.

Uşaqlıq yolunda edilən bu hazırlıqlarla yanaşı, körpənin dünyaya təhlükəsiz şəkildə gəlməsi üçün bir çox şərtlərin eyni anda yerinə yetirilməsi lazımdır. Məsələn, körpə çıxış üçün ən uyğun duruş almalıdır. Bunun üçün ayaq hərəkətləri ilə yavaş-yavaş dönməyə başlayır və sonda başı ananın uşaqlıq boynuna daxil olur. Körpənin hərəkəti indi məhdudlaşdırılıb və başını oradan çıxara bilmir. Bəs hələ dünyaya gəlməmiş körpə hansı mövqenin uyğun olduğuna necə qərar verir? Doğuş üçün ən uyğun mövqeni necə bilir? Üstəlik, ana bətnində olan döl doğum vaxtının gəldiyini necə müəyyən edir? Təbii ki, bunlar nəzərə alınmalı olan son dərəcə vacib detallardır. Şüuru hələ tam inkişaf etməmiş bir varlığın bu cür şüurlu davranış nümayiş etdirməsi onun öz iradəsi ilə deyil, Yaradanın proqramı ilə hərəkət etdiyini açıq şəkildə göstərir.

Körpənin doğulması zamanı bir çox başqa möcüzəvi dizayn nümunələri də aşkar olunur. Məsələn, sağlam doğuşun baş verməsi üçün körpənin kəllə sümüyü doğum kanalında zədələnməyəcək bir quruluşa sahib olmalıdır. Körpənin kəllə sümüyünə baxdıqda onun 5 sümük təbəqəsi və onların arasında bu ehtiyacı ödəyəcək ”fontanel” adlı yumşaq toxumadan ibarət olduğunu görürük. Bu yumşaq quruluş kəllə sümüyünün elastik olmasına imkan verir və beləliklə, doğuş zamanı meydana gələn təzyiq nəticəsində körpənin beyninə və kəllə sümüyə heç bir zərər verilmir.

Körpənin doğulmasından əvvəl ana orqanizmində çox ciddi nəzarət altında hazırlıqlar aparılır. Standart prosedurun dəqiq planının hazırlanmasından əlavə, mümkün ehtimallar nəzərə alınmaqla ehtiyat tədbirləri də görülür! Məsələn, amniotik maye doğumu asanlaşdırmaq və infeksiyaların qarşısını almaq üçün işə düşür.

Bu vəziyyət ortaya belə bir sualı gətirir: Bütün hazırlıqların tamamlandığını və doğumun dəqiq vaxtının gəlib çatdığını kim yoxlayır? Körpədə gözlərin görməsinə, ağciyərlərin nəfəs almasına, oynaqların və beynin tam formalaşmasına kim nəzarət edir? Və bütün hazırlıqların tamam olmasını kim xəbər verir?

Yeni əmələ gələn dölün bədənində bunları idarə edə biləcək heç bir mexanizm yoxdur. Bədəndəki bütün orqanların mərkəzi idarəetmə sistemi sayılan beyin, döllə birlikdə inkişaf edən bir orqandır. Üstəlik, beyin tamamilə mövcud olsa belə, heç bir məna kəsb etməzdi. Çünki ana bətnində o ana qədər inkişaf edən döl xarici mühitdən tamamilə xəbərsizdir. Heç görmədiyi bir mühitə uyğun olub olmadığını müəyyən etməsi mümkün deyil. Doğuş vaxtının nə vaxt gəldiyini ananın özü də müəyyən etmir. Ananın ilk gündən bədəninin fəaliyyətinin tək bir mərhələsinə belə müdaxilə etmək imkanı yoxdur ki, bu mərhələlərin bitməsi lazım olduğuna da qərar verə bilsin.

Göründüyü kimi, insanın yaranması təbiətin yaradılışının kulminasiyasını təşkil edir.Digər canlılardan fərqli olarq insana təkcə mükəmməl bədən forması deyil, həm də dərrakə, şüur, ağıl verilir ki, dünyadakı missiyasını düzgün yerinə yetirə bilsin. Təəssüf ki, əksər insanlar öz həqiqi mahiyyətlərini dərk edə bilmir.

Dinlərdə izah olunur ki, yaradılışın bir məqsədi var və bu məqsədin həyata keçirilməsi üçün insanlar yaradılır, onlara dünyada həyat verilir. Bu həyat isə zamanın çox qısa bir hissəsində möhtəşəm mükəmməliklə yaradılır və ona ruh verilir. Ruh bədən vasitəsilə dünyada öz fəaliyyətini həyata keçirir. Zamanı gəldikdə isə gəldiyi yerə qayıdır.

”Ey insanlar, əgər dirilməyə şübhə edirsinizsə, odur ki, Biz sizi torpaqdan, sonra bir damla sudan, sonra rüşeymdən, sonra yaradılışı aydın olmayan çeynənmiş ət parçasından yaratdıq. (Qüdrətimizi) sizə açıq-aydın göstərmək üçün. Biz istədiyimizi ana bətnində müəyyən müddətə qədər saxlayırıq. Sonra sizi körpə olaraq çıxardırıq, sonra da həddi-büluğa çatasınız deyə sizi böyüdürük. Bəzilərinizin həyatını son verilir, bəziləriniz isə bildikdən sonra heç nə bilməmək üçün həyatınızın ən aşağı nöqtəsinə qaytarılır”... (Quran, Həcc surəsi, 5).

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
9 iyul
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Yay aylarında müalicə almaq olar?



## HƏKİM AÇIQLADI

"Yay aylarında müalicə aparmağın qeyri-məqsədəuyğun olduğu düşüncəsi tibbi baxımdan əsassızdır". Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Hacıyev deyib. Sübhan Hacıyev sözlərinə belə davam edib: "Cəmiyyətdə formalaşmış "yay aylarında müalicə almaq düzgün deyil" fikri, elmi əsasları olmayan və heç bir tibbi ədəbiyyatda və ya klinik protokollarda yer almayan bir yanlış inanca əsaslanır. Halbuki xəstəliklərin yaranması ilin müəyyən bir fəsli ilə məhdudlaşmır - bu hallar ilin istənilən dövründə baş verə bilər və klinik praktika bunu təsdiqləyir. Bəzən belə hallara da rast gəlinir ki, insanlar yay aylarında D vitamini qəbul etməməyə üstünlük verirlər. Onlar hesab edirlər ki, günəş şüaları ilə kifayət qədər D vitamini sintez olunur. Lakin bu, yalnız müəyyən şərtlər daxilində - günün konkret saatlarında və bədənin təxminən 60%-i açıq vəziyyətdə günəşə məruz qalması halında mümkündür. Real şəraitdə bu şərtlərin təmin olunması çətin olduğu üçün, əgər orqanizmdə D vitamini səviyyəsi aşağıdırsa, bu vitamin həm yay, həm də qış aylarında əlavə qida əlavəsi kimi qəbul edilməlidir.

İnfeksion proseslərə gəldikdə isə, onların vaxtında müalicə olunmaması ciddi ağırlaşmalara, o cümlədən sepsis (qan zəhərlənməsi) kimi həyati təhlükə yaradan hallara gətirib çıxara bilər. Bu səbəbdən xəstəliyin ilkin və ya gecikmiş mərhələsi yay aylarına təsadüf edirsə belə, müalicə təxirə salınmadan başlanmalıdır. Müalicə üsulları xəstəliyin xarakterindən asılı olaraq medikamentoz, terapevtik və ya cərrahi müdaxilə formasında ola bilər. Lakin burada vacib məqam odur ki, müalicənin aparılıb-aparılmaması qərarı ilin fəslinə əsasən deyil, xəstəliyin təbiətinə və klinik gedişinə əsasən verilməlidir. Nəticə etibarilə, xəstəlik mövcuddursa, onun müalicəsi ilin istənilən dövründə, müvafiq tibbi göstərişlərə əsasən aparılmalıdır. Əks təqdirdə, bu, xəstənin sağlamlığı və həyatı üçün ciddi risklər doğura bilər".

*Ayşən Vəli*

# Məşhur qapıçı daha 2 il "Barselona"da



"Barselona" qapıçı Voyçex Şensnı ilə yeni razılıq əldə edib. Klubun rəsmi açıqlamasında deyilir ki, katalon təmsilçisi 35 yaşlı polşalı qapıçı ilə 2027-ci ilin yayına qədər müqavilə imzalayıb. Onun klubla olan əvvəlki sözləşməsi hazırkı yaya qədər idi. Qeyd edək ki, Voyçex Şensnı ötən ilin oktyabr ayından "Barselona"da çıxış edir. Təcrübəli qapıçı Kataloniya təmsilçisinin heyətində 30 qarşılaşmaya çıxıb və 14 dəfə qapısını toxunulmaz saxlayıb.

# Gənc ailələrə valideyn müdaxiləsi...



"Ailə tərbiyəsi görmüş bir ailədə yaranan hər hansı bir problem, adətən valideynlə ələqələndirilmir. Əgər bu günə qədər mənim ayaqda durmağıma səbəb olan valideynlərim olublarsa, bu o deməkdir ki, onlar düzgün ailə tərbiyəsi veriblər. Bu səbəbdən də həmin ailədə baş verən problemlərin səbəbini valideyndə axtarmaq doğru deyil". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib. Onun sözlərinə görə, 18 yaşında olan gənclər ailə qurmağa meyilli olurlar. Bunu bütün gənclərə aid etməsək də, bir çox hallarda belə olur. Belə vəziyyətlərdə böyüklərin müdaxiləsi vacibdir. Çünki evləndikdən sonra ilk üç ay ərzində gənclər arasında problemlər yaranır və onlar boşanma qərarı almağa meyil göstərirlər: "Bu cür həssas məqamlarda valideynlər sakit və düzgün mövqe sərgiləməli, hər iki tərəfi - həm oğlanı, həm də qızı - sakitləşdirici və anlayışlı bir yanaşma ilə dinləməlidirlər. Əgər valideynlər "Mən sənə demişdim, bu yaşda evlənmək olmaz, qoy ayrılsınlar" kimi sözlər deyirlərsə, bu, yolverilməzdir. Heç bir valideyn övladının ailəsində problem yaşamasını və boşanma ilə üzləşməsini istəməz - xüsusilə də həmin ailədə körpə uşaqlar varsa. Bəzən ağıllı valideynlər çıxış yolu olaraq psixoloqa müraciət edirlər ki, bu da çox müsbət addımdır.

Qeyd etmək lazımdır ki, əvvəlki dövrün gəncləri ilə indiki nəsil arasında müəyyən fərqlər var. Keçmişdə gənclər valideynlərlə birlikdə yaşamağın həm maddi, həm də mənəvi cəhətdən faydalı olduğunu düşünürdülər. Amma bu gün bir çox gənclər həyatın yalnız onlara aid olduğunu düşünür və sərbəst yaşamaq istəyirlər. Bu cür düşüncə tərzi bəzən gənc ailələrdə gərginliklərə səbəb ola bilər. Əgər bir gənc 24 yaşdan sonra ailə qurursa, bu artıq müəyyən mənada kamillik dövrünə düşür. Bu yaşda insanlar daha məntiqli və düşüncəli olur, valideynlərlə konfliktlərə girmirlər. Belə ailələrə kənar müdaxilə - istər dostlardan, istər qohumlardan, istərsə də qonşulardan - yolverilməzdir. Həmçinin valideynlərin hörmətini qorumaq hər bir gəncin borcudur.

Əsas məsələ gənclərin atdığı addımlar və onların məntiqi düşüncə qabiliyyətidir. Əgər onlar düşünülmüş qərarlar verirlərsə, heç bir müdaxiləyə ehtiyac qalmır. Bu baxımdan 24-29 yaş arasında ailə quranlara qarışmaq doğru deyil. Çünki bugünkü gənclər əvvəlki nəsildən çox fərqlənirlər. Bəzən görürsən ki, bir gənc 18 yaşında işə başlayır, 20 yaşında isə artıq ondan təcrübə tələb olunur. Halbuki təcrübə zamanla və işlədikcə formalaşır. İnsan ünsiyyət bacarığını inkişaf etdirdikcə, sabah sağlam bir ailə də qura bilir. Belə bir ailəyə isə müdaxilə etmək düzgün olmaz".

*Ziya Hikmətoğlu*

## BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov ailə üzvləri ilə birlikdə Vasif Məmmədova qardaşı

**Rəhim Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**